# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 sentyabr 2026-cı il, çərşənbə
№ 172 (7239)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Dövlət Proqramı təqdim edildi...

## İlham Əliyev: Təbii resurslarımızın işlənməsi, onlardan səmərəli şəkildə istifadə olunması, istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək



Bax səh. 2

# Azərbaycandan Türk dünyasının gələcəyinə istiqamətlənən yol

Bax səh. 3




Bax səh. 4

## Qərbi Azərbaycan İcmasında yaradılan İşçi Qrupu...



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş...

## Vətən müharibəsinə 4 gün qalırdı...

Bax səh. 3

## “Birliyin Gücü - 2026”

Bax səh. 4

## Kənd təsərrüfatı üçün məhsul şəhadətnaməsi

Bax səh. 5

## Daha güclü maliyyə institutu naminə...

Bax səh. 5



## Aİ yeni ticarət tərəfdaşları axtarışında

Bax səh. 7



## “Vahid Rusiya” rekordunu yeniləyib

Bax səh. 7

# IV Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına



Hörmətli Forum iştirakçıları!

Sizi "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumunda səmimi-qəlbdən salamlayıram.

Artıq dördüncü dəfə Bakıda keçirilən bu Forum müxtəlif ölkələrin xüsusi xidmət və təhlükəsizlik orqanlarının rəhbər və nümayəndələrini bir araya gətirməklə beynəlxalq təhlükəsizlik sahəsində fikir mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişafı üçün mühüm imkan yaradır. Forumun iştirakçı coğrafiyasının ildən-ilə genişlənməsi və müzakirə olunan məsələlərin aktuallığı Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Əminəm ki, builki tədbir də təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı, qarşılıqlı fikir və təcrübə mübadiləsi baxımından əhəmiyyətli olacaqdır.

Bu gün dünya sürətli və mürəkkəb dəyişikliklər dövrünü yaşayır. Beynəlxalq münasibətlər sistemində baş verən proseslər, geosiyasi rəqabətin kəskinləşməsi, müxtəlif regionlarda davam edən münaqişələr və qarşıdurmalar qlobal təhlükəsizlik mühitinə ciddi təsir göstərir. Etimad böhranının kəskinləşməsi və qarşılıqlı anlaşmanın çətinləşməsi milli təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsini və beynəlxalq sabitliyin qorunmasını bütün ölkələrin qarşısında duran fundamental və təxirəsalınmaz prioritetə çevirir.

Dünyada sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması bütün dövlətlərin ortaq məsuliyyətidir. Müasir çağırışların miqyası və təhdidedici xarakteri qarşılıqlı əməkdaşlığın gücləndirilməsini, çevik və əlaqələndirilmiş yanaşmaların tətbiqini zəruri edir. Çünki təhlükəsizlik anlayışı artıq ayrı-ayrı dövlətlərin sərhədləri ilə məhdudlaşmır. Hər hansı bir regionda meydana gələn böhran və ya gərginlik ocağı qısa müddət ərzində digər regionlara təsir göstərə, siyasi və iqtisadi sabitliyə, enerji və ərzaq təhlükəsizliyinə xələl gətirə, nəqliyyat və kommunikasiya əlaqələrində ciddi fəsadlara yol aça bilir. Terrorçuluq və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, qanunsuz silah və narkotik dövriyyəsi, kibercinayətkarlıq və digər transsərhəd təhdidlər də məhz bu qarşılıqlı bağlılıqdan istifadə edərək daha mürəkkəb xarakter alır.

Xüsusilə müasir texnologiyaların və yeni imkanların terrorçuluğun fəaliyyət dairəsinin genişləndirilməsi üçün istifadə olunması ciddi narahatlıq doğurur. Rəqəmsal imkanlardan, o cümlədən süni intellektin bədniyyətli istifadəsi radikal ideyaların yayılmasına, terrorçu şəbəkələrin maliyyə mənbələrinin genişlənməsinə və yeni tərəfdarların cəlb edilməsinə təkan verərək terrorçuluğa qarşı mübarizənin səmərəliliyinə ciddi maneələr yaradır. Bu şəraitdə terrorçuluğa qarşı mübarizə yalnız ayrı-ayrı ölkələrin səyləri ilə məhdudlaşmamalı, beynəlxalq əməkdaşlığın və birgə fəaliyyətin mühüm istiqamətlərindən biri olaraq qalmalıdır.

Təhlükəsizliyin etibarlı təmin olunması üçün yalnız mövcud təhdidlər və onların nəticələri ilə mübarizə aparmaq deyil, riskləri əvvəlcədən müəyyən etmək və onların qarşısını vaxtında almaq vacibdir. Bunun üçün dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, təhlükəsizlik orqanları arasında peşəkar əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı məlumat mübadiləsinin effektivliyinin artırılması xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, açıq və etibarlı dialoq əsasında qurulan tərəfdaşlıqlar ən mürəkkəb təhlükəsizlik çağırışlarının belə daha çevik və effektiv şəkildə qarşısının alınmasına imkan yaradır.

Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasını, dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsini və əməkdaşlığın genişləndirilməsini əsas prioritetlərdən hesab edir. Ölkəmiz müxtəlif beynəlxalq və regional platformalarda təhlükəsizlik məsələləri ilə bağlı dialoqun təşviqinə, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə mühüm əhəmiyyət verir. Bakı Təhlükəsizlik Forumunun keçirilməsi də bu məqsədlərə xidmət edərək konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə və qarşılıqlı etimadın daha da möhkəmləndirilməsinə şərait yaradır.

Əminəm ki, builki Forum çərçivəsində aparılacaq müzakirələr müasir qlobal təhlükəsizlik çağırışlarının daha dərindən dərk edilməsinə, onların qarşısının alınması istiqamətində yeni yanaşmaların müəyyənləşdirilməsinə, xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsinə şərait yaradacaq, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə və gələcək nəsillər naminə daha sabit və təhlükəsiz dünyanın formalaşdırılmasına xidmət edəcəkdir.

IV Bakı Təhlükəsizlik Forumunun işinə uğurlar, bütün iştirakçılarına isə səmərəli müzakirələr və məhsuldar əməkdaşlıq arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

# Dövlət Proqramı təqdim edildi...







## İlham Əliyev: Təbii resurslarımızın işlənməsi, onlardan səmərəli şəkildə istifadə olunması, istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Ölkə iqtisadiyyatı üçün çox perspektivli sahə olan dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı bu gün bizə təqdim ediləcək. Proqramın hazırlanması üçün mən bir müddət bundan əvvəl - aprelin əvvəlində müvafiq Sərəncam imzalamışam. Bu aylar ərzində proqram üzərində hazırlıq işləri gedirdi. Bu proqram bu gün bizə və Azərbaycan ictimaiyyətinə təqdim olunacaqdır.

Bu sahə ölkə iqtisadiyyatı üçün, xüsusilə ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, çox perspektivli sahədir. Düzdür, maliyyətutumlu sahədir, amma eyni zamanda, ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradılacaqdır. Beş mindən çox daimi iş yerlərinin açılması nəzərdə tutulur. Bütövlükdə bizim təbii resurslarımızın işlənməsi və onlardan səmərəli şəkildə istifadə olunması, eyni zamanda, istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək.

Deyə bilərəm ki, son vaxtlar bir neçə Dövlət Proqramı qəbul olunmuşdur. Qəbul edilmiş bütün proqramlar çox konkretdir, qısamüddətlidir və son məqsədə çatmaq üçün həm dövlət büdcəsində növbəti illər üçün maliyyə təminatı, həm də investisiya proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Eyni zamanda, bu proqramların icra və nəzarət mexanizmləri də tam hazırdır.

Qəbul edilmiş proqramlar arasında əlbəttə ki, ilk növbədə, üç əsas istiqaməti qeyd edərdim, halbuki daha çox proqram qəbul edilib. Amma kənd təsərrüfatına, nəqliyyata, su təsərrüfatına - həm meliorasiya, həm Bakı və Abşeron yarımadasının su təminatına dair Dövlət proqramları, əlbəttə ki, çox böyük vəsait tələb edir. Amma bu proqramlar həm ölkə iqtisadiyyatını gücləndirəcək, eyni zamanda, vətəndaşların sosial vəziyyətini və müasir infrastrukturla təmin olunmasını təmin edəcəkdir.

Qeyd etdiyim kimi, qəbul edilmiş proqramlar qısamüddətlidir, 2030-cu ilin sonuna qədər icra edilməlidir. Düzdür, su proqramı daha böyük vaxt tələb edir. Amma dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Proqram da cəmi 4 il ərzində icra edilməlidir. 2027-2030-cu illərdə proqram tam icra edilməlidir. Qəbul ediləcək bu yeni proqram, eyni zamanda, bizim regionların sosial-iqtisadi inkişafına dair gündəliyimizi əks etdirir.

Bildiyiniz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair bir neçə Dövlət Proqramı qəbul edilmişdir. Birinci Proqram 2004-cü ilin əvvəlində qəbul edilmişdir. Əslində, bu, 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra qəbul edilmiş ən önəmli proqramdır. Ondan sonra bir neçə beşillik proqram qəbul edilib və faktiki olaraq regionlarda əsas infrastruktur layihələri icra edilib. Düzdür, bu layihələrin icrası bu gün də davam edir. Çünki əhali artır, məşğulluq artır, iqtisadiyyat artır. Ona görə bu proqramlar statik vəziyyətdə deyil, daim o proqramlara əlavələr edilməlidir və bu gün dövlət investisiya proqramlarında, hər il qəbul etdiyimiz proqramlarda bölgələrin inkişafı xüsusi yer tutur.

Bir daha demək istəyirəm, bu 20 il ərzində görülmüş işlər imkan verdi ki, biz əsas infrastruktur layihələrimizi icra etdik. O vaxt xaricdən həm təbii qaz, həm də elektrik enerjisi alırdıq. Bizim öz imkanlarımız çox məhdud idi. Bu gün isə ölkəmizdə qazlaşmanın səviyyəsi 96 faizdir və biz 25 milyard kubmetrdən çox qaz ixrac edirik. Daxili tələbat bundan qat-qat aşağıdır. Biz elektrik enerjisi ilə bağlı bütün məsələləri həll etdik və çox güclü potensial yaratdıq. Bu gün bizdə ehtiyat generasiya gücləri kifayət qədər böyükdür. Müəyyən həcmdə ixrac da edilir, amma növbəti illərdə bu ixrac genişmiqyaslı olacaq, xüsusilə nəzərə alsaq ki, dünya bazarlarında enerji resursları ilə bağlı - elektrik enerjisi, yanacaq, təbii qaz, bütün bu əsas enerji təhlükəsizliyini təmin edən bu məhsullarla bağlı böyük narahatlıq var, qıtlıq var. Yəni dünya mənzərəsi göz önündədir. Ona görə bütün bu işlərin vaxtında görülməsi ilə bağlı atdığımız addımlar bizi böyük problemlərdən sığortaladı. Təsəvvür edin ki, əgər bunları etməsəydik, bu gün biz çox çətin vəziyyətə düşə bilərdik və bəzi ölkələr kimi qapı-qapı gəzib xahiş-minnət edərək öz enerji təhlükəsizliyimizi təmin etmək üçün gərək kiməsə ağız açaydıq.

Bu gün isə mənzərə tam fərqlidir. Bizə çoxlu müraciətlər daxil olur və biz təbii ki, imkan daxilində kömək göstəririk, göstərəcəyik. Təbii ki, bizim həm rolumuz artır, həm nüfuzumuz artır və eyni zamanda, bütün tərəfdaşlar görürlər ki, Azərbaycan son illər ərzində nə qədər irəliyə gedib, nə qədər güclənib ki, bu gün nəinki öz tələbatını tam təmin edir, eyni zamanda, bir çox ölkələr üçün enerji sahəsində əvəzolunmaz tərəfdaşa çevrilib.

Təbii ki, digər infrastruktur layihələri də uğurla icra edilib və edilir, o cümlədən sosial infrastrukturla bağlı layihələr - xəstəxana tikintisi, məktəb tikintisi, avtomobil yolları, dəmir yolları, hava limanları. Ona görə qeyri-neft sektorunun inkişafını, o cümlədən bu infrastruktur layihələri şərtləndirir. Təbii ki, maliyyə sistemimizdə aparılan islahatlar, o cümlədən vergi və gömrük sistemində aparılan islahatlar, inzibatçılıqla bağlı bürokratik əngəllərin azaldılması və ləğv edilməsi ilə bağlı atılan addımlar, əlbəttə, belə bir müsbət mənzərə yaratmışdır.

Əgər ölkə iqtisadiyyatının ümumi inkişafına baxsaq görərik ki, artım templəri çox da böyük deyil. Bunun təbii səbəbləri var, ilk növbədə, təbii neft hasilatının aşağı düşməsi. Bizim əsas neft yatağımız "Azəri-Çıraq-Günəşli" artıq 30 ilə yaxındır istismardadır və təbii ki, obyektiv səbəblərə görə hasilatın düşmə templəri də var. Çalışırıq ki, bu templəri sabitləşdirək. Eyni zamanda, əminəm ki, yeni layihələr bundan sonra da Azərbaycanda neft hasilatını lazımi səviyyədə saxlayacaq və ümid edirəm, hətta artım da olacaq. Ancaq bu gün bizim ümumi iqtisadi inkişafımızın, ümumi daxili məhsulumuzun 1,2 faiz artmasının səbəbi budur. Bu, bizi narahat etməməlidir, çünki bundan daha vacib göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da son 8 ayda, yəni bu ilin 8 ayında 5,4 faiz artım olmuşdur.

Yəni qeyri-neft sənayesi sahəsində biz yaxşı nəticələr göstəririk və o cümlədən qəbul edilmiş proqramlar bu artımı daimi və uzunmüddətli edəcək.

Əfsuslar olsun ki, Azərbaycanda dağ-mədən sənayesi həm obyektiv, həm subyektiv səbəblərə görə lazımi səviyyədə inkişaf etməyib. Obyektiv səbəblər ondan ibarətdir ki, sovet vaxtında aşkar edilmiş bizim bir çox yataqlarımız işğal altında olan bölgələrdə yerləşirdi və Ermənistan dövləti öz işğalçılıq siyasətini, o cümlədən Azərbaycan xalqının və dövlətinin təbii resurslarını talamaqda da davam etdirirdi. Təkcə onu demək kifayətdir ki, işğal dövründə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 60 min hektar meşə fondu Ermənistan dövləti tərəfindən məhv edilib, talan edilib, kəsilib, satılıb və artıq İkinci Qarabağ müharibəsindən sonra yandırılıb, o müddətdə ki, erməni silahlı qüvvələri Kəlbəcər və Laçın rayonlarından çıxmalı idi, orada onlara 2-3 həftə vaxt verilmişdi. Hamının yaxşı xatirindədir, onlar həm ağacları məhv edirdilər, həm də santexnikanı yaddan çıxarmayıblar. Görünür, onlar üçün ən qiymətli iki məsələ var idi: biri Azərbaycan təbiətini tamamilə məhv etmək, ikinci də ən qiymətli santexnika cihazlarını özləri ilə aparmaq. O işğal dövrünün onlar üçün əsas yadigarı yəqin ki, odur.

O cümlədən bizim təbii resurslarımız - qızıl, mis, molibden yataqlarımız talan edilirdi. Təbii ki, işğal dövründə Ermənistan dövləti ancaq talançılıqla məşğul idi. Sovet vaxtında isə müəyyən dərəcədə kəşfiyyat işləri aparılmışdır. Amma o vaxt sovet hökuməti üçün bu bölgə, xüsusilə Azərbaycan bu sahə üzrə prioritet sayılmırdı. Prioritet neft sənayesi sayılırdı. Ona görə bizim bir çox yataqlarımız, yəni perspektivli yataqlarımız bu gün hələ də öz geoloji kəşfiyyat dövrünü gözləyir. Bunun, əlbəttə ki, bu tərəfi müsbətdir. Çünki bu ehtiyatlar bu gün yerin altındadır. Biz bu məsələlərin həlli üçün Dövlət Proqramında çox konkret mexanizmlər tətbiq edəcəyik. Birinci növbədə, işğaldan azad edilmiş ərazilərdə istismarda olan yataqların tezliklə işə salınması məsələləridir. Bunlar, ilk növbədə, Kəlbəcər, Ağdərə və Zəngilan rayonlarında yerləşən qızıl, mis, molibden yataqlarıdır. Ağdərə rayonunda artıq işlərə başlanılmışdır. Ümid edirəm ki, yaxın gələcəkdə həm Kəlbəcərdə, həm Zəngilanda da işlərə start veriləcək və beləliklə, mövcud olan, yəni aşkar edilmiş yataqlarda istismar artıq başlanılacaq.

Eyni zamanda, mövcud yataqları biz tam təhlil edib müasir geoloji üsullarla oradakı ehtiyatları tam dəqiqləşdirməliyik. Çünki sovet dövründə müəyyən rəqəmlər var idi. Amma o dövrdən təxminən 40 il keçib. Həm məlumatlar köhnəlib, həm də bu gün yeni texnologiyalar var ki, heç o vaxt sovet dövründə bu haqda heç kim fikirləşə də bilməzdi.

İkinci istiqamət. Nəzərə alsaq ki, bu bölgədə böyük təbii resurslar var. Ehtimal ki, dediyim o rayonların digər bölgələrində, həm qonşu rayonlarda da böyük təbii resurslar var. Bu məqsədlə kəşfiyyat işləri, geoloji kəşfiyyat işləri aparılacaq. Artıq buna da start verildi. Yenə də deyirəm, ən müasir texnologiyalar var. Yəqin ki, bu gün bu barədə bizə məlumat veriləcəkdir.

Digər perspektivli bölgə Naxçıvan Muxtar Respublikasıdır. Orada da vaxtilə, - sovet dövrünü nəzərdə tuturam, - və son dövrlərdə geoloji kəşfiyyat işləri lazımi səviyyədə aparılmamışdır. Ona görə orada da böyük yataqların mövcudluğu ehtimalı çox yüksəkdir. Naxçıvan Muxtar Respublikasında geoloji kəşfiyyat işləri artıq yəqin ki, gələn ildən başlayacaq.

Onu da bildirməliyəm ki, biz işimizi iki istiqamət üzrə qururuq. Birincisi, dövlət xətti ilə. "AzerGold" şirkəti bu məsələləri həll edəcək. İkincisi, özəl sektorun iştirakı ilə. Bu sahə özəl sektor üçün də açıqdır və mövcud olan kontraktlar da icra edilir. Əgər dediyim o xarici tərəfdaşlar tərəfindən aparılan geoloji kəşfiyyat işləri nəticə verərsə, təbii ki, xarici investorlar da iştirak edəcəklər. Biz bunu alqışlayırıq. Çünki bu, yenə də deyirəm, çox maliyyətutumlu sahədir və burada əhəmiyyətli dərəcədə yeni qızıl, mis, molibden yataqları aşkarlanarsa, onda bütün sikl - zənginləşdirmə və emal zənciri yaradılmalıdır. Çünki əgər əhəmiyyətli dərəcədə aşkarlanarsa, bu resursları sadəcə olaraq filiz kimi dünya bazarlarına çıxarmaq səhv olar.

Növbəti istiqamət Avropa qitəsində ən perspektivli yataqlardan biri sayılan Balakən rayonunda yerləşən "Filizçay" polimetal yatağıdır. Bu yataq qeyd etdiyim kimi, çox perspektivlidir və artıq bir neçə ildir ki, "AzerGold" şirkəti bu yatağın istismara hazırlanması ilə bağlı işlər görür. Hesab edirəm ki, tezliklə texniki-iqtisadi əsaslandırma hazır olmalıdır və yekun investisiya qərarı da qəbul edilməlidir. Mən hesab edirəm ki, "AzerGold" bu yatağın 100 faiz səhmdarı olmalıdır. İstismar getdikcə təbii ki, bu yatağın qiyməti də, dəyəri də qalxacaq. Onda biz baxa bilərik. Ola bilər, müəyyən faiz səviyyəsində, - əgər maraq olarsa, mən əminəm ki, olacaq, - xarici investorlar da bu yatağa cəlb oluna bilər.

Bu yaxınlarda Qərb Sənaye Parkının yaradılması ilə bağlı Fərman imzalanıb. Sənaye parkları Azərbaycanda artıq bir çox bölgələrdə, demək olar ki, hər bir bölgədə var, o cümlədən aqroparklar. Sənaye parklarının və aqroparkların fəaliyyəti nəticəsində milyardlarla manat əlavə dəyər yaradıldı, o cümlədən ixrac potensialımız gücləndirildi.

Qərb Sənaye Parkının yaradılmasının əsas məqsədi məhz dağ-mədən sənayesinin inkişafıdır. Çünki "Daşkəsən" filiz yatağının istismarı və ona yaxın olan bölgələrdə digər layihələrin icra edilməsi, əlbəttə ki, məhz Qərb Sənaye Parkının yaradılmasını şərtləndirdi. Burada, ilk növbədə, tezliklə infrastruktur yaradılmalıdır və bu məqsədlə büdcədə lazımi vəsait nəzərdə tutulmalıdır. Dağ-mədən sənayesinin son məhsula qədər tam zənciri yaradılmalıdır. Burada təbii ki, filiz hasilatı və bir neçə zavodun yaradılması nəzərdə tutulur. Zənginləşdirmə, pelet və breketlənmiş dəmir zavodları yaradılmalıdır. Burada, təbii ki, bu filizin daşınması önəmli yer tutur. Ona görə bu daşınmada, yəni tariflərdə güzəştlər edilməlidir ki, iqtisadi cəhətdən səmərəli olsun. Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir. Çünki əsas sərvətimiz hətta yerin altında olan sərvətlər deyil, bizim təbiətimizdir. Ona görə həm təbiətin qorunmasını, həm ekoloji normaların ən yüksək standartlara cavab verməsini, əlbəttə ki, biz xarici tərəfdaşlardan tələb edirik və tələb edəcəyik. Əgər ona əməl etməsələr, onlar cəzalandırılacaq. Təbii ki, dövlət şirkəti olan "AzerGold" bütün ekoloji standartlara cavab verməlidir.

Metallurgiya sənayesinin inkişafına dair. Əlbəttə ki, alüminium istehsalının inkişafı nəzərdə tutulur. Müəyyən xarici tərəfdaşlardan təkliflər olsa da, onların təklifləri reallaşmadı. Çünki biz maksimum çalışırıq ki, ölkə iqtisadiyyatına səmərə verə biləcək mexanizmlər tətbiq edilsin. Ona görə hesab edirəm ki, biz özümüz bu önəmli sənaye istiqamətini inkişaf etdirməliyik və qəbul olunacaq proqram əsasında alüminium istehsalı 100 min tona çatdırılmalıdır. Burada da müddət, dediyim kimi, 2030-cu ilin sonuna qədərdir. Burada da bir neçə zavod yaradılacaq və bu barədə bizə indi məlumat veriləcək.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu proqramın maliyyə təminatı bəllidir, bütün müvafiq qurumlarla razılaşdırılıb və biz bu proqramı istənilən halda icra edəcəyik. Amma eyni zamanda, əgər yerli və xarici investorlar maraq göstərsələr, müəyyən faiz səviyyəsində onların iştirakı da mümkündür. Olsa yaxşıdır, olmasa da yaxşıdır. Onsuz da biz bunu edəcəyik. Amma mən hesab edirəm ki, sahə, düzdür, maliyyətutumludur, ancaq gəlirlidir. Xüsusilə bu gün qiymətli metalların dünya bazarlarındakı qiyməti kifayət qədər yüksəkdir və yəqin ki, aşağı-yuxarı bu səviyyədə belə də qalacaq. Ona görə həm maliyyətutumludur, həm də ki, gəlirlidir. Ona görə yerli və xarici investorlara da mesajımız budur ki, qapılar açıqdır. Proqram dərc olunacaq, görüləcək bütün işlər orada sadalanır. Hər kəs tanış ola bilər. Əgər maraq doğursa, onda xarici investorları da biz cəlb edə bilərik. Yekun olaraq bu bizə nə verəcək? Qeyd etdiyim kimi, yeni bir güclü sənaye istiqaməti yaradılacaq. Beş mindən çox, bəlkə də daha çox yeni iş yeri yaradılacaq. İşğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun inkişafı, orada məşğulluğun artırılması daha sürətlə gedəcək. Ölkə büdcəsinə vergilər şəklində böyük vəsait daxil ediləcək, güclü ixrac potensialı yaradılacaq. İndi bunu demək bəlkə də bir qədər tezdir. Amma gözlənilən illik müsbət maliyyə təsiri bir milyard manatdan daha çox olmalıdır. Yəni son rəqəm demək istəmirəm. Amma bunlar milyardlarla manat səviyyəsində ölçülə biləcək layihələrdir.

# Azərbaycandan Türk dünyasının gələcəyinə istiqamətlənən yol

## TDT-nin yeni siyasi-iqtisadi xəritəsi Bakıda formalaşdırılır

Qlobal məkanda baş verən siyasi-iqtisadi transformasiyalar, o cümlədən, regional rəqabətin, hətta münaqişələrin genişləndiyi bir zamanda orta güc dövlətlərinin birliyi və konselidasiyası olduqca vacib şərt kimi ön plana çıxır. Bu isə yeni iqtisadi və siyasi əlaqə formatlarının yaranması, nəqliyyat-kommunikasiya dəhlizlərinin əhəmiyyətinin artması şəklində özünü büruzə verir - həmin dövlətlər regional əməkdaşlığı daha geniş müstəviyə çıxarmaq üçün səylərini birləşdirirlər. Belə bir şəraitdə Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyəti yalnız türk dövlətləri arasındakı münasibətlərin inkişafı baxımından deyil, bütövlükdə Avrasiya geosiyasi məkanında gedən proseslər kontekstində diqqət çəkir. TDT-nin son illərdə siyasi, iqtisadi, nəqliyyat, enerji, təhlükəsizlik, humanitar və digər istiqamətlərdə əməkdaşlığı genişləndirməsi təşkilatın beynəlxalq gündəlikdəki yerini möhkəmləndirib. Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər hövzəsini bir-biri ilə əlaqələndirən coğrafi xətt TDT-yə Şərq-Qərb əlaqələrinin inkişafında mühüm imkanlar yaradır. Xüsusilə Orta Dəhlizin aktuallaşması, yeni nəqliyyat marşrutlarının formalaşması və enerji təhlükəsizliyi məsələlərinin ön plana çıxması təşkilata üzv dövlətlərin geoiqtisadi əhəmiyyətini daha da artırır.




Artıq geniş funksional strukturlaşmaya malik olan TDT-nin yaranmasında, inkişafında və regional aktora çevrilməsində Azərbaycanın təşəbbüsü, səyi və qətiyyəti danılmazdır. 2021-ci ilə qədər Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanan təşkilatın fəaliyyətinin əsas məqsədi türkdilli öl-

### Naxçıvandan başlanan yol....

kələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Bu təşkilat 17 il öncə - türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb. Təşkilatın yaranmasında əsas məqsəd üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsidir. Eləcə də TDƏŞ-ə üzv dövlətlər ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi və hüquqi məlumatların mübadiləsinin, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində yaxın əməkdaşlığa malikdirlər.

Müasir TDT Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır. Özbəkistan 30 aprel 2018-ci ildə ovaxtkı TDƏŞ-ə qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdu. 2021-ci il noyabrın 12-də İstanbul şəhərində baş tutan sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Sonradan bu sıraya Şimali Kipr Türk Cümhuriyyəti, Macarıstan və Türkmənistan müşahidəçi dövlət statusunda qatılıblar. Üzv ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanır və TDT-nin çağırışları, regional predmetlər, real siyasi vəziyyət müzakirə olunur.

### Yeni nizamın aparıcı iqtisadi-siyasi platforması...

Qeyd edildiyi kimi, Azərbaycan həm Cənubi Qafqazın aparıcı siyasi-iqtisadi aktoru kimi, həm Xəzər hövzəsinin aparıcı enerji və nəqliyyat mərkəzlərindən biri kimi, həm də Mərkəzi Asiya ilə Avropa arasında mühüm bağlantı imkanlarına malik ölkə kimi TDT daxilində əməkdaşlığın inkişafında fəal iştirak edir.

Bakı müxtəlif illərdə təşkilatın siyasi gündəliyinin formalaşmasına, nəqliyyat və logistika layihələrinin irəlilədilməsinə, iqtisadi əlaqələrin genişləndirilməsinə və üzv dövlətlər arasında koordinasiyanın gücləndirilməsinə mühüm töhfələr verib.

Bu baxımdan TDT-nin inkişafı Azərbaycanın xarici siyasətində də mühüm istiqamətlərdən biri kimi diqqəti cəlb edir. Təşkilatın qlobal siyasi məkanda artan çəkisi və Azərbaycanın burada fəal mövqeyi həm ölkənin regional əlaqələrinin genişlənməsi, həm də türk dövlətləri arasında daha sıx əməkdaşlıq perspektivləri baxımından əhəmiyyət daşıyır.

Azərbaycanın Türk Dövlətləri Təşkilatı üzvü ölkələrə sərmayə qoyuluşu son illərdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsinin əsas istiqamətlərindən birinə çevrilib. Azərbaycan kapitalının iştirakı ilə həyata keçirilən layihələr enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı və sənaye sahələrini əhatə edir. Bu sərmayələr yalnız iqtisadi gəlir məqsədi daşımır, eyni zamanda üzv dövlətlər arasında qarşılıqlı əlaqələri artıraraq vahid iqtisadi məkanın formalaşmasına xidmət edir. Nəticə etibarilə, Azərbaycanın TDT məkanında sərmayə fəallığı iqtisadi inteqrasiyanı gücləndirən və uzunmüddətli inkişaf perspektivlərini təmin edən mühüm amil kimi çıxış edir. Azərbaycan təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoyub.

Eyni zamanda, TDT çərçivəsində iqtisadi və logistika əməkdaşlığı da təşkilatın gələcək möhkəmlənməsinin əsas dayaqlarından biri sayılır. Türk dünyası coğrafiyası - Orta Asiyadan Qafqaza, Anadoludan Avropaya qədər uzanan geniş bir xəritədir və bu ərazidə nəqliyyat, kommunikasiya, enerji və ticarət dəhlizləri baxımından nəhəng potensial mövcuddur. Azərbaycan bu kontekstdə əsas tranzit və inteqrasiya mərkəzidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz TDT ölkələrinin iqtisadi əlaqələrinin genişlənməsi üçün real körpü rolunu oynayır. Bakı - Tbilisi - Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı və "Ələt" Azad İqtisadi Zonasının fəaliyyəti, Zəngəzur dəhlizi (TRİPP) layihəsinin formalaşdırılması təkcə regionun deyil, Avrasiyanın ticarət xəritəsini yenidən formalaşdırır.

### Qarabağ Bəyannaməsi: strateji imkanların birləşdirilməsi...

Bir məqama xüsusi toxunmaq lazımdır - 2024-cü ilin yayında Şuşada keçirilən TDT liderlərinin qeyri-rəsmi Zirvə görüşü təşkilatın inkişaf perspektivlərini, hədəflərini və inteqrasiyasının istiqamətlərini müəyyənləşdirdi. Bu zirvədə 5 Türkdilli dövlət tərəfindən imzalanan Qarabağ Bəyannaməsi ilə TDT daha da irəliyə yol aldı. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində Türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyulur. Paralel olaraq Bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri bir daha vurğulanır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verilməsi əksini tapır. Eyni zamanda, sənəddə Macarıstanın, Türkmənistanın və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələri alqışlanır, Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlıq və artan sinerji təqdir edilir.

### Gələcəyin yol xəritələri Bakıda müəyyənləşdirilir...

Azərbaycan Türk Dövlətləri Təşkilatı daxilində konsolidasiyanın möhkəmləndirilməsi, qarşılıqlı etimadın artırılması və inteqrasiya proseslərinin daha da dərinləşdirilməsi istiqamətində fəal mövqe nümayiş etdirir. Ölkəmizin təşəbbüsü və ev sahibliyi ilə keçirilən çoxsaylı tədbirlər bu yanaşmanın praktik ifadəsidir. Bakı son illərdə Türk dövlətləri arasında siyasi dialoqun, iqtisadi əməkdaşlığın, humanitar əlaqələrin və təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsinin mühüm platformalarından birinə çevrilib.

Təsadüfi deyil ki, son 10 gün ərzində Bakıda TDT ilə bağlı iki mühüm tədbirin keçirilməsi təşkilatın gündəliyində Azərbaycanın roluna diqqəti bir daha artırıb. Həm Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və müşahidəçiləri, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçıları və Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri, həm də TDT Baş katibi və təhlükəsizlik şuralarının rəhbərləri Prezident İlham Əliyev tərəfindən qəbul olundular. Müzakirələr zamanı TDT-nin inkişaf istiqamətləri, aparıcı hədəflər dilə gətirildi, təşkilata üzv dövlətlər arasında əlaqələrin daha da gücləndirilməsi məsələsi diqqətdə saxlanıldı. Bu mənada həm tədbirlər, həm də görüşlər yalnız texniki və ya təşkilati xarakter daşımadı - bu tədbirlər və görüşlər mühüm siyasi mesaj kimi qiymətləndirildi.

Beləliklə, Azərbaycanın yanaşmasında TDT yalnız ortaq tarixi və mədəni bağların qorunduğu platforma deyil, həm də üzv dövlətlərin siyasi və iqtisadi potensialını bir araya gətirən əməkdaşlıq məkanı kimi çıxış edir. Bakının təşəbbüsləri də məhz bu istiqamətdə təşkilat daxilində praktiki əlaqələrin və qarşılıqlı həmrəyliyin gücləndirilməsinə xidmət edir. TDT-nin fəal yüksəlişinin mərkəzində isə Azərbaycanın strateji liderliyi, iqtisadi təşəbbüsləri və siyasi qətiyyəti dayanır.

*Pərviz SADAYOĞLU*



# Vətən müharibəsinə 4 gün qalırdı...

Tarixin bu günü - 23 sentyabr 2020-ci il. Vətən müharibəsinin başlamasına cəmi 4 gün qalırdı. Sentyabrın 27-də Ermənistan hərbi birləşmələri keçmiş təmas xətti boyunca növbəti təxribatlara əl atdı. Düşmən cəzalandırılmalı idi və Ordumuz da bunu etdi. 4 gün sonra Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişləri əsasında sübh tezdən təxribatların qarşısını almaq məqsədilə genişmiqyaslı əks-hücum əməliyyatlarına başladı. Bu, Azərbaycan tərəfindən ədalətli müharibə idi. Yüksək döyüş hazırlıqlarına malik olan Silahlı Qüvvələrimiz cəmi 44 gün ərzində işğalçı Ermənistanı kapitulyasiyaya məruz qoydu.

### Atəşkəs rejimi bir gündə 49 dəfə pozulmuşdu

Müharibə sanki addım-addım, saatbasaat yaxınlaşırdı. Dağların, meşələrin, çöllərin sükutu tez-tez atəş səsləri ilə pozulurdu. Bu baxımdan sentyabrın 23-ü də istisna olmadı. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin həmin gün yaydığı məlumatda bildirilir ki, 23 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə sutka ərzində atəşkəs rejimini 49 dəfə pozub.

O cümlədən Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Bir gündə atəşkəs rejiminin 49 dəfə pozulması düşmənin xəbis niyyətindən xəbər verirdi. Ərazilərimizin 20 faizini otuz il ərzində işğal altında saxlayan Ermənistana qarşı beynəlxalq təşkilatlar tərəfindən hər hansı bir sanksiya tətbiq olunmurdu. Özünün cəzasızlıq mühitində hiss edən işğalçı dövlət isə yenii ərazilər zəbt etmək xülyasına düşmüşdü.

### Azərbaycan Ordusu işğal faktına son qoymağa tam hazır idi

İşğalçı Ermənistanın hərbi birləşmələrinin keçmiş təmas xətti boyunca ətraf yaşayış məntəqələrini atəşə tutmaqla, əraziləri minalamaqla dəhşətli müharibə cinayətləri törətmələrinə rəğmən, Azərbaycan Ordusu özünün yeganə missiyasını ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etməkdə görürdü. Bunun üçün də Silahlı Qüvvələrimizin döyüş hazırlığının artırılması diqqət mərkəzində saxlanılırdı.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin sentyabrın 23-də yaydığı məlumatda bildirilir ki, müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq raket və artilleriya birləşmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib. Təlimlərin məqsədi artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, peşəkarlığın artırılması, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı fəaliyyətin təşkilidir.

Raket və artilleriya qoşunlarının müxtəlif bölmələri təlimin ssenarisinə uyğun olaraq ehtiyat mövqelərə yerdəyişmə etdikdən sonra döyüş atışlarını yerinə yetirərək şərti düşmən hədəflərini məhv edib. Təlimlərin yüksək səviyyədə keçməsi ondan xəbər verirdi ki, ordumuz həmin ərəfədə ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etməyə tam hazır idi.

*Mübariz FEYİZLİ*

# YAP İdarə Heyətinin üzvü Rauf Əliyevə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni təqdim olunub





Sentyabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü Rauf Əliyev ilə görüş keçirilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Rauf Əliyev Heydər Əliyev ideyalarına sadiq, möhkəm əqidəli və vətənpərvər şəxsiyyət kimi uzun müddət müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Rauf Əliyevin Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında və inkişafında xidmətlər göstərdiyini vurğulayan Tahir Budaqov qeyd edib: "Təsadüfi deyil ki, çoxillik və məqsədyönlü fəaliyyətiniz ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2016-cı ildə "Şöhrət", 2026-cı ildə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunmağınız əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".

Tahir Budaqov vurğulayıb ki, Rauf Əliyev hazırda YAP İdarə Heyətinin üzvü kimi məqsədyönlü fəaliyyətini uğurla davam etdirərək partiyanın həyatında yaxından iştirak edir: "Sizə möhkəm cansağlığı, uzun ömür və YAP İdarə Heyətinin üzvü, eləcə də Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birinci vitse-prezidenti kimi milli-mənəvi dəyərlərin, dövlət maraqlarının qorunması və gənc nəslin vətənpərvərlik ruhunda sağlam yetişməsi istiqamətində şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram".

Sonra Rauf Əliyevə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni təqdim olunub.

YAP İdarə Heyətinin üzvləri, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin deputatları Musa Quliyev və Pərvin Kərimzadə, Vüqar Rəhimzadə çıxış ediblər. Qeyd olunub ki, Rauf Əliyev uzun müddət müxtəlif vəzifələrdə uğurla çalışaraq ona göstərilən etimadı layiqincə doğruldub. Natiqlər R.Əliyevin YAP İdarə Heyətinin üzvü kimi səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdıraraq ona möhkəm cansağlığı və işlərində uğurlar arzulayıblar.

Göstərilən diqqətə və yüksək etimada görə Azərbaycanı Zəfər zirvəsinə yüksəldən ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə minnətdarlığını bildirən Rauf Əliyev Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən, Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yaxından iştirak etməkdən qürur duyduğunu, bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Qərbi Azərbaycan İcmasında yaradılan İşçi Qrupu...

## Zəngəzur, Dərələyəz və Göyçə gölü hövzəsində yerləşən alban xristian irsini araşdıracaq

Azərbaycan qədim dövlətçilik ənənələrinə, zəngin tarixi və mədəni irsə malikdir. Ərazilərimizdə tarixin müxtəlif dövrlərində yaranmış dövlətlər və mədəniyyətlər Azərbaycanın çoxqatlı tarixinin formalaşmasında mühüm rol oynayıb. Şübhəsiz ki, adı yazılı mənbələrdə eramızdan əvvəl IV əsrdən etibarən çəkilən Qafqaz Albaniyası xüsusi çəkiyə malikdir. AMEA-nın məlumatlarına görə, əslində bu dövlətin formalaşması daha qədim dövrlərə qədər gedib çıxır. Arxeoloji qazıntılar və əldə edilən tapıntılar da sübut edir ki, Azərbaycan ərazisində Albaniya dövlətinin yaşı 3 min ildən çoxdur. Əgər tarixi mənbələrə və xəritələrə baxsaq, Albaniya dövlətinin ərazilərinin Kür çayından şimalda yerləşən torpaqlar, Qarabağ və Azərbaycanın şimal-qərb bölgələri ilə bağlı olduğunu görərik. Tarixi vilayətlər arasında Uti, Arsak, Şəki, Qəbələ və digər bölgələrin adına rast gəlmək mümkündür ki, onların bir qismi bu gün də öz tarixi adlarını qoruyub saxlamaqdadır. IV əsrdən başlayaraq xristianlığın yayılması və Albaniyada bu dinin dövlət səviyyəsində qəbul olunması ölkənin müxtəlif ərazilərində xristian məbədlərinin inşasına və dini icmaların formalaşmasına səbəb oldu. O dövrlərdə müxtəlif ərazilərdə inşa edilən kilsə və monastırlar dini və mədəni həyatın əsas mərkəzlərinə çevrildi. Yəni, Albaniyada xristianlığın qəbulu memarlığın inkişafına və bu irsin günümüzədək gəlib çatmasına zəmin yaratdı.

**Erməni saxtakarlığı...**

Qeyd edək ki, Albaniyada formalaşan dini memarlıq da bu gün tariximizdə mühüm yer tutur. Həmin memarlıq abidələri alban xristian irsinin əsas nümunələrindən biridir. Məsələn, Kəlbəcərdə VI-VII əsrlərdə inşa edilən Xudavəng, Laçında V-VI əsrlərə aid Ağoğlan kilsəsi, orta əsrlərə aid Havaptuğ məbədi ilə yanaşı, Gəncəsər monastırı, Yeddi Qapı monastırı, Piçənis alban məbədini misal çəkə bilərik. Bundan əlavə, Qax rayonunda Kürmük məbədi, Qum kəndində 6-cı əsrə aid məbəd, Güllük kəndində 7-ci əsrə aid alban kilsəsi mövcuddur. Zaqataladakı məşhur Pəriqala da alban məbədi sayılır. Qədim Qəbələnin isə Albaniyanın paytaxtı olması tarixi faktdır. Nic, Əmilli, Çuxur Qəbələ kəndlərindəki abidələr, Komrad dağı və digər qədim məbəd qalıqları var. Şəkinin Kiş kəndində, orta Zəyzid kəndində də alban memarlıq nümunələri kifayət qədərdir. Bundan əlavə, Qax və digər rayonlarda da kifayət qədər kilsə və məbədlər mövcuddur.

Göründüyü kimi, abidələr müxtəlif əsrlərə aiddir və söhbət bir dövrdə yaranmış müxtəlif tikililərdən yox, əsrlər boyu davam edən Alban mədəniyyətindən və irsindən xəbər verir. Lakin ermənilər bu məsələdə də saxtakarlıq edərək guya həmin dini abidələrin "erməni irsinə" aid olduğunu iddia edirlər.

Erməni yalanlarını ifşa etmək üçün ölkəmiz müxtəlif addımlar atır, tədbirlər keçirir, əsl tarixi gerçəklikləri dünya ictimaiyyətinə çatdırır.

Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanın dövlətçilik tarixində Qafqaz Albaniyası irsi" mövzusunda keçirilən tədbir də bu baxımdan xüsusi vurğulanmalıdır. Tədbirdə Azərbaycanın qədim dövlətçilik tarixində Qafqaz Albaniyasının yeri və rolu, onun siyasi, mədəni və dini irsi ilə bağlı məsələlər müzakirə olunub.

**Ermənilər dini irsdən silah kimi istifadə etməyə çalışır**

BMTMM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qafqaz Albaniyası irsinin qorunmasının siyasi məqamlarının da xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, ölkəmizin ərazisində tarix boyu müxtəlif dövlətlər mövcud olub və onların hər biri Azərbaycan xalqına zəngin tarixi və mədəni irs qoyub. Bu irsi geniş şəkildə araşdıraraq ictimaiyyətə təqdim etməsək, müəyyən boşluqlar yaranır və həmin boşluqlardan öz məqsədləri üçün istifadə etməyə çalışan qüvvələr meydana çıxır. "Qafqaz Albaniyası tarixinin araşdırılması istiqamətində elmi fəaliyyət daha da genişləndirilməlidir. Bu baxımdan erməni və gürcü dillərinin öyrənilməsi, eləcə də Qafqaz tarixinin ilkin




mənbələr əsasında araşdırılması xüsusi əhəmiyyət daşıyır. Bəzi erməni radikalları Qarabağda mövcud olan kilsələrin Azərbaycan tərəfindən "albanlaşdırıldığını" iddia edirlər. Lakin bu yanaşma reallığı əks etdirmir. Azərbaycanın ərazisində müxtəlif xalqlara və dini icmalara məxsus tarixi ibadət məkanları mövcuddur və ölkəmiz bu abidələrin qorunmasına diqqət yetirir", - deyə İdarə Heyətinin sədri vurğulayıb.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Ramil Ağayev bildirib ki, Qafqaz Albaniyasında katolikosluğun formalaşması mühüm məsələlərdən biridir. Xristianlığın Albaniyada yayılması və burada müstəqil kilsə institutlarının fəaliyyəti ilə bağlı məsələlər Azərbaycan tarixşünaslığında, o cümlədən görkəmli tarixçi Ziya Bünyadovun əsərlərində araşdırılıb. "Qafqaz Albaniyasında xristianlığın yayılması erməni kilsəsinin tarixindən əvvəlki dövrlərə gedib çıxır. Həmin dövrdə Albaniyada fəaliyyət göstərən katolikosluq və kilsə institutlarının müstəqilliyi məsələsi də tarixi mənbələr əsasında araşdırılıb. Təəssüf ki, bəzi hallarda bu irsin başqa xalqların adına çıxarılması cəhdləri müşahidə olunur. Lakin belə məsələlərə yanaşarkən ilkin mənbələrdən, epiqrafik abidələrdən və elmi araşdırmalardan çıxış etmək lazımdır", - deyə tarixçi bildirib.

Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov qeyd edib ki, ümumiyyətlə, Qarabağda prinsipial əhəmiyyət daşıyan və yalnız Qarabağ, yaxud Qafqaz xristianlığı üçün deyil, bütövlükdə xristian dünyası üçün əhəmiyyətli olan üç kilsə var. Bunlardan biri Gəncəsər, digəri Xudavəng, üçüncüsü isə Ağoğlan kilsəsidir: "Alban irsi müxtəlif tarixi dövrlərdə dağıntılara məruz qalıb. Diplomatik korpusun nümayəndələri dəfələrlə Qarabağa səfər ediblər. Burada müəyyən ideoloji məsələlər də var ki, erməni tərəfi onları konservasiya edərək saxlayır ki, gələcəkdə vəziyyət dəyişərsə, həmin məsələlərdən yenidən istifadə edə bilsin".

BMTMM-nin İdarə Heyətinin sədrinin müavini Fərhad Məmmədov hazırda radikal ermənilərin dini irsdən silah kimi istifadə etməyə çalışdıqlarına diqqət çəkib. Onun sözlərinə görə, Ermənistan kilsəsinin son zamanlar qəbul etdiyi qərarlar göstərir ki, Ermənistan cəmiyyətində ən böyük revanşizm elə budur. "Qafqaz Albaniyası irsinin tarixi daha da dərin araşdırılmalıdır. Ancaq bu yolla elmi və siyasi səviyyədə təsiri görüləcək", - deyə Fərhad Məmmədov bildirib.

**İcma: Bu mövzuda əlimizdə yüzlərlə sənəd mövcuddur**

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcmasında indiki Ermənistan Respublikası ərazisində, tarixi Zəngəzur, Dərələyəz və Göyçə gölü hövzəsində yerləşən alban xristian irsinin öyrənilməsi məqsədilə İşçi Qrupu yaradılıb. İcmadan verilən məlumata görə, qrup kilsə, sövmə, xaçdaş və monastırların tarixini, memarlıq və epiqrafik xüsusiyyətlərini, mənsubiyyətini arxiv sənədləri və digər ilkin mənbələr əsasında elmi metodlarla araşdırmaq məqsədilə yaradılıb.

Qeyd olunub ki, Azərbaycan elmi mühitində XVI-XIX əsrlər Alban katolikosluğu sənədlərinin tamamilə məhv olduğu fikri yayılıb. İtkilər şübhəsizdir, lakin bir sıra ölkələrin arxiv və əlyazma fondlarında həm Alban katolikoslarına, həm də dövrün dini-ictimai tarixinə dair çoxsaylı sənədlər, mənbələr saxlanılır, bir hissəsi isə artıq nəşr olunub. Bu materiallar müxtəlif fondlara səpələnib. Onların sistemli axtarışla aşkarlanıb vahid elmi bazada toplanması İşçi Qrupunun əsas missiyasıdır. Hazırda Qərbi Azərbaycan İcmasında bu mövzuda artıq yüzlərlə sənəd mövcuddur.

Bu ilin sentyabrında xarici diplomatların Gəncəsər monastır kompleksinə səfəri mədəni irsin diplomatik gündəmə çıxdığını göstərdi. Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindəki çoxqatlı dini-mədəni irsi, o cümlədən Qafqaz Albaniyasının orta əsr abidələrini, deportasiya olunmuş azərbaycanlıların varisləri kimi, öz irsinin tərkib hissəsi hesab edir. Bu mövqeyi beynəlxalq elmi mühitdə yalnız mənbələrə söykənən faktlar və təkrar yoxlanıla bilən tədqiqatlar əsaslandıra bilər. Tədqiqat həm də deportasiya olunmuş əhalinin təhlükəsiz və ləyaqətli qayıdışının tarixi-mədəni əsaslarının sənədləşdirilməsinə xidmət edəcək.

*Nardar BAYRAMLI*

# "Birliyin Gücü - 2026"

## Birgə hərbi təlimlər Türk dünyasının inteqrasiyasında mühüm rol oynayır

Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasında ordu quruculuğu hər zaman prioritet istiqamət kimi müəyyən edilib. Müasir dövrdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan qeyri-sabitlik, regional münaqişələr, geosiyasi rəqabətin kəskinləşməsi və yeni təhlükə mənbələrinin meydana çıxması dövlətləri öz müdafiə imkanlarını daim gücləndirməyə vadar edir. Bu reallıqlar fonunda Azərbaycan yalnız daxili



hərbi potensialını artırmaqla kifayətlənmir, eyni zamanda dost, qardaş və tərəfdaş ölkələrlə təhlükəsizlik sahəsində əməkdaşlığı ardıcıl şəkildə genişləndirir. Birgə hərbi təlimlər bu əməkdaşlığın ən mühüm və praktiki elementlərindən biri kimi çıxış edir.

Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hərbi təlimlərdə iştirakı ordunun döyüş hazırlığının yüksəldilməsi, yeni taktiki vərdişlərin mənimsənilməsi, müasir hərbi texnologiyaların tətbiqi və qarşılıqlı əməliyyat uyğunluğunun artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan, Türkiyə və Özbəkistan arasında keçirilməsi nəzərdə tutulan hərbi təlimlər üç ölkə arasında mövcud olan strateji tərəfdaşlığın hərbi müstəvidə də dərinləşdiyini nümayiş etdirir.

**Üç məkanda, üç mərhələdə...**

Qeyd edildiyi kimi, Azərbaycan, Özbəkistan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə "Birliyin Gücü - 2026" birgə hərbi təlimi keçiriləcək. Üç mərhələdən ibarət olan təlim Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda yerləşən "Qızılqaya" Təlim Mərkəzində, Naxçıvan Muxtar Respublikasında yerləşən "Qarabağlar" Təlim Mərkəzində, eləcə də Xəzər dənizinin ölkəmizə aid akvatoriyasında yerləşən "Böyük Zirə" təlim rayonunda təşkil olunacaq.

Şəxsi heyət, döyüş texnikaları, dəniz və aviasiya vasitələrinin, eləcə də pilotsuz uçuş aparatlarının cəlb edilməsi ilə keçiriləcək təlimin əsas məqsədi birgə əməliyyatlara hazırlıq səviyyəsinin artırılması, qoşunların koordinasiyasının və təlim prosedurlarının standartlaşdırılması, eləcə də bölmələrin yeni döyüş imkanlarının təkmilləşdirilməsidir.




Bir neçə gün öncə təlimdə iştirak etmək məqsədilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti və aviasiya vasitələri ölkəmizə gəliblər. Müvafiq plana uyğun olaraq, şəxsi heyətin yerləşdirilməsi və digər təşkilati məsələlərlə bağlı lazımi tədbirlər icra olunub.

Sentyabrın 21-də isə Özbəkistan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti "Birliyin Gücü - 2026" birgə hərbi təlimində iştirak etmək üçün Azərbaycana gəlib. Heyətin Füzuli Beynəlxalq Hava Limanında qarşılanması, təlim ərazisində yerləşdirilməsi, məişət və təminat məsələlərinin həlli üzrə müvafiq işlər yerinə yetirilib.

**Hərbi əməkdaşlıqdan qarşılıqlı fəaliyyət qabiliyyətinə**

Bu təlimlər Azərbaycan, Türkiyə və Özbəkistan arasında müdafiə sahəsində əməkdaşlığın son illərdə yeni mərhələyə keçdiyini göstərən əsas istiqamətlərdən biri kimi dəyərləndirilir. Əslində, bu üç ölkənin hərbi əməkdaşlığının təməli daha əvvəl qoyulub. 2025-ci ilin sentyabrında keçirilən "Sonsuz Qardaşlıq-IV" çoxmillətli xüsusi təyinatlı təlimində Azərbaycan, Türkiyə və Özbəkistanla yanaşı, Qazaxıstan və Pakistanın xüsusi təyinatlıları da iştirak edib. Təlimin məqsədləri sırasında birgə əməliyyat imkanlarının artırılması, qarşılıqlı fəaliyyət qabiliyyətinin təmin edilməsi, təcrübə mübadiləsi və regional təhlükəsizliyə töhfə göstərilirdi.

Bu təlimlər üç ölkənin birgə keçirdiyi ilk təlim kimi yadda qalsa da, bu dövlətlər ayrı-ayrılıqda bu sahədə təcrübəyə malikdirlər. Azərbaycan -Türkiyə hərbi təlimləri isə artıq uzunmüddətli və sistemli xarakter daşıyır.

"TurAz Qartalı", "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "Sarsılmaz Qardaşlıq", "Qardaş Yumruğu" kimi təlimlər müxtəlif illərdə iki ölkənin quru qoşunları, xüsusi təyinatlıları, hərbi hava qüvvələri və digər bölmələrinin birgə fəaliyyət imkanlarını sınaqdan keçirib. Bu təlimlər orduların qarşılıqlı fəaliyyətinin, çevikliyinin və müasir döyüş üsullarına uyğun hazırlığının artırılmasına xidmət edib. Xüsusilə, ötən il bu istiqamətdə intensivlik müşahidə olunub. Məsələn, Naxçıvanda keçirilən "Sarsılmaz Qardaşlıq-2025" təlimində tank, mexanikləşdirilmiş və komando bölmələri artilleriya, hava hücumundan müdafiə və aviasiya bölmələri ilə birlikdə tapşırıqlar yerinə yetirib. Həmin il Azərbaycan hərbi pilotları və texniki heyəti Türkiyədəki "Anadolu Qartalı-2025" beynəlxalq təlimində də iştirak edib.

Türkiyə-Özbəkistan xəttində də hərbi təlimlər artıq müəyyən ənənə formalaşdırıb. "Dostluq" adı ilə keçirilən xüsusi təyinatlı təlimlərdə iki ölkənin hərbçiləri taktiki hazırlıq, atəş, yaxın döyüş və mürəkkəb şəraitdə fəaliyyət üzrə birgə məşqlər aparıblar. 2025-ci ilin noyabrında isə "Kardeş Dostlar-2025" komanda-qərargah təlimi keçirilib. Türkiyə Milli Müdafiə Nazirliyi bu təlimin əsas məqsədini iki ölkə silahlı qüvvələri arasında dostluq və əməkdaşlığın, qarşılıqlı fəaliyyət qabiliyyətinin, eləcə də məlumat və təcrübə mübadiləsinin inkişaf etdirilməsi kimi göstərib.

Bu təcrübələrin fonunda Azərbaycan-Türkiyə-Özbəkistan formatının meydana çıxması hərbi əməkdaşlığın daha geniş müstəviyə keçdiyini göstərir. Ayrı-ayrılıqda formalaşmış hərbi təcrübənin üçtərəfli müstəvidə bir araya gətirilməsi ordular arasında əməliyyat uyğunluğunun, komanda-idarəetmə təcrübəsinin, rabitə və koordinasiyanın inkişafı baxımından əhəmiyyətlidir. Hərbçilərin eyni təlim ssenariləri çərçivəsində fəaliyyət göstərməsi real şəraitdə qarşılıqlı anlaşma və koordinasiya imkanlarını da genişləndirir.

**Regional təhlükəsizlik naminə...**

Bu prosesin regional təhlükəsizlik baxımından mühüm töhfələri var. Azərbaycan Cənubi Qafqazı, Türkiyə Avrasiyanın mühüm hissəsini, Özbəkistan isə Mərkəzi Asiyanı təmsil edən dövlətlər kimi hərbi təcrübə və imkanlarını əlaqələndirirlər. Belə əməkdaşlıq nəqliyyat və enerji marşrutlarının, strateji kommunikasiyaların və dövlətlərin təhlükəsizlik maraqlarının daha etibarlı qorunması üçün əlavə imkanlar yarada bilər. Eyni zamanda, birgə təlimlər orduların müxtəlif coğrafi və əməliyyat şəraitində fəaliyyətə hazırlığını artırır. Bu mənada, "Birliyin Gücü-2026" yalnız ayrı-ayrı hərbi bölmələrin birgə məşqi kimi deyil, Azərbaycan, Türkiyə və Özbəkistan arasında illər ərzində formalaşan hərbi əlaqələrin üçtərəfli müstəvidə daha praktik xarakter almasının nümunəsi kimi qiymətləndirilir. Bu proses hərbi əməkdaşlığın institusional və praktiki tərəflərinin möhkəmlənməsinə, qarşılıqlı etimadın artmasına və regional təhlükəsizlik sahəsində koordinasiyanın genişlənməsinə zəmin yaradır.

**Birgə təlimlərdən birgə müdafiə imkanlarına...**

Ən əsas nüans isə "Birliyin Gücü-2026" təliminin gələcəkdə Türk Dövlətləri Təşkilatı çərçivəsində daha sistemli müdafiə əməkdaşlığının formalaşmasına da praktiki zəmin yarada bilməsidir. Azərbaycan, Türkiyə və Özbəkistan hərbçilərinin eyni təlim ssenarisi üzrə fəaliyyət göstərməsi ordular arasında koordinasiya, qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsini genişləndirir. Təlimin əsas məqsədləri sırasında birgə əməliyyatlara hazırlığın artırılması və təlim prosedurlarının standartlaşdırılması da yer alır. Bu baxımdan üç ölkənin qazandığı təcrübə gələcəkdə digər üzv dövlətlərin də cəlb olunduğu daha geniş təhlükəsizlik mexanizmlərinin yaradılması üçün model rolunu oynaya bilər.

Vurğulayaq ki, bu günün rakursunda TDT üzvü olan ölkələrə qarşı hər hansı real təhlükələr hiss edilməsə belə, əməkdaşlığın hərbi müdafiə sahəsi üzrə inkişaf etdirilməsi inteqrasiyanı daha da sürətləndirəcək. Ortada mühüm bir nümunə mövcuddur - Azərbaycan ilə Türkiyə arasında imzalanan "Şuşa Bəyannaməsi" yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq doktrinası rolunda çıxış edə bilər. Şuşa Bəyannaməsinin yeni dövr üçün Türk hərbi əməkdaşlığının əsas istinad nöqtəsi seçilməsi isə əsaslı və arqumentlidir - müqavilə iki dövlət arasında imzalansa da, orada əksini tapan məsələlər vacibliyinə və yeni çağırışlar nöqteyi-nəzərdən kollektiv müdafiə mexaniz-



minin yaradılmasında da iştirak etmək qabiliyyətindədir. Sənəddə beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı, xüsusilə də hər iki ölkənin milli və birgə təhlükəsizliyi ilə əlaqədar çox vacib məsələlər əks olunub - ən əsası, Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, Azərbaycan, Türkiyə və Özbəkistanın birgə təlimləri TDT-nin birgə müdafiə imkanlarının genişləndirilməsi üçün olduqca əlverişli zəmin yarada bilər.

*P.İSMAYILOV*

# Kənd təsərrüfatı üçün məhsul şəhadətnaməsi

## Kənd təsərrüfatı mülkiyyətçiləri istehsaldan əvvəl qiymətli kağız formasında şəhadətnamə alacaqlar

Milli Məclisin Aqrar siyasət komitəsinin sentyabrın 18-də keçirilən iclasında "Məhsul şəhadətnaməsi haqqında" qanun layihəsi müzakirə olunub. Sənəd aqrar sahədə yeni maliyyələşmə mexanizminin bir hissəsi kimi məhsul şəhadətnaməsinin tətbiqini nəzərdə tutur. Məhsul şəhadətnaməsi kənd təsərrüfatı məhsullarının istehsalçılarının mövsümdən qabaq maliyyə resursları ilə təmin edilməsinə yönəlmiş maliyyə aləti olmaqla, özündə borc, alqı-satqı və digər müqavilələrin xüsusiyyətlərini əks etdirir.

Şəhadətnaməni mülkiyyətində, istifadəsində və ya icarəsində kənd təsərrüfatı təyinatlı torpaqlarda əkinçiliklə məşğul olan şəxslər ala biləcəklər.

Sənədlə fermer gələcəkdə istehsal edəcəyi müəyyən miqdarda məhsulu alıcıya vermək öhdəliyi götürə və bunun müqabilində əvvəlcədən pul əldə edə biləcək. Həmçinin fermer məhsul əvəzinə müəyyən edilmiş pul məbləğini ödəməyi öhdəsinə götürə biləcək. Məhsulun satışından əldə olunan vəsait tələb olunan məbləği tam ödəməzsə, müəyyən hallarda çatışmayan məbləğ borclunun digər əmlakından da tələb oluna bilər.



### Şəhadətnamə ilə bağlı öhdəliklərin icrası

Yeni maliyyə aləti istehsalçıların hələ istehsal prosesi başlamazdan əvvəl qiymətli kağız formasında məhsul şəhadətnaməsini əldə etməsini təmin edəcək. İstehsalçı şəxs həmin maliyyəyə çıxış üçün "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil olaraq maliyyə təşkilatları və təchizatçılara təklif edəcək. Həmin qurumlar istehsalçının təklifinini nəzərdən keçirərək məqsəduyğun saydıqları təqdirdə həmin şəhadətnamənin verilməsini rəsmiləşdirəcək. Məhsul şəhadətnaməsi əvvəlcədən maliyyələşmə müqaviləsi şəklində olmaqla, istehsalın nəticəsinin özündə əks etdirəcək. Kağız maliyyə təşkilatı və tədarükçü arasında öhdəliklərin sxemini müəyyən edəcək. Əgər kənd təsərrüfatı təyinatlı torpaqlar iki və daha çox şəxsin ümumi mülkiyyətində, istifadəsində və ya icarəsindədirsə, onlar məhsul şəhadətnaməsini birgə buraxacaq və məhsul şəhadətnaməsi ilə bağlı öhdəliklərin icrası üçün birgə məsuliyyət daşıyacaqlar.

### Bank və BOKT-ların marağı

Öhdəliyin icrası kimi pul vəsaiti və ya kənd təsərrüfatı məhsulunun təqdim edilməsindən asılı olaraq, məhsul şəhadətnaməsi maliyyə və ya əmtəə məhsul şəhadətnamələri ola bilər. Maliyyə məhsul şəhadətnaməsində bir qayda olaraq maliyyə təşkilatları (bank, BOKT) maraqlı olurlar və bu şəhadətnamə borc müqabilində gələcək məhsulun satışından əldə ediləcək vəsaitin fermer tərəfindən kreditora (şəhadətnaməni əldə edən şəxsə) ödənilməsi öhdəliyini ehtiva edir.

Əmtəə məhsul şəhadətnaməsində isə tədarükçülər maraqlı olurlar və bu şəhadətnamə borc müqabilində gələcək məhsulun fermer tərəfindən kreditora (şəhadətnaməni əldə edən şəxsə) verilməsi öhdəliyini ehtiva edir. Ümumilikdə, hər iki növ məhsul şəhadətnaməsinin tətbiqi kənd mülkiyyətçisi üçün çox əhəmiyyət daşıyır. Belə ki:

* Fermer zəruri vəsaiti istehsal prosesindən əvvəl əldə edərək istifadə edir;
* Tədarükçülər əldə edəcəkləri məhsul barədə əvvəlcədən təminat aldığından bazar münasibətlərində daha çevik iştirak edə bilirlər;
* Maliyyə təşkilatları aqrar sahə üzrə yeni və icrası daha çevik maliyyə aləti əldə edirlər;

Müqavilələrdən fərqli olaraq məhsul şəhadətnaməsi üzrə öhdəliyin icrasının pozulması halında çevik, az xərcli və məhkəmənin minimal iştirakı ilə tutma proseduru müəyyən edilir. Layihəyə əsasən məhsul şəhadətnaməsi özü icra sənədi kimi çıxış edir və icra sənədi daxil olduğu gündən etibarən dərhal icraya yönəldilir.



### Proses "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə izləniləcək

Məhsul şəhadətnamələrinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə əldə edilməsinin əsas məqsədi isə bu sənədin tərtibi və təsdiqi (notarial) üzrə xərclərin aradan qaldırılması təmin etməkdir. Ən əsası isə bu əməliyyatların elektron sistem vasitəsilə izlənilməsi hər iki tərəf üçün etibarlılığı artırır, sistem zəmanətverici və öhdəlikləri rəsmi bəyan edən mexanizm rolunu oynayır.

Yeri gəlmişkən, şəhadətnaməni əldə edəndən sonra alınmış maliyyənin təyinatsız xərclənməsinə görə də, məsuliyyət nəzərdə tutulub. Belə ki, məhsul şəhadətnaməsi üzrə öhdəlik icra edilmədikdə və ya lazımi qaydada icra edilmədikdə təminata Mülki Məcəllə və "İcra haqqında" Qanuna uyğun olaraq tədbirlər görüləcək. Əgər məhsul şəhadətnaməsinin təminatının satışından götürülən məbləğ şəhadətnamənin mülkiyyətçisinin tələbini ödəmək üçün yetərli olmadıqda, tərəflərin razılaşmasına əsasən, məhsul şəhadətnaməsinin mülkiyyətçisi çatışmayan məbləği Mülki Məcəllə və "İcra haqqında" Qanuna uyğun olaraq borclunun başqa əşyasından almaq hüququna malik olacaq.

Beləliklə, məhsul şəhadətnaməsinin tətbiqi kənd təsərrüfatı məhsullarının yetişdirilməsində və ilkin emalında dəstəkverici maliyyə təminatı olacaq. Şəhadətnamənin sahibi istehsal və ilkin emal prosesini nəzarətdə saxlamaqla prosesə nəzarət edəcək ki, bu da tələb edilən keyfiyyətli məhsulun tədarükünə imkan verəcək. Eyni zamanda, məhsulun əldə edilməsinin zəmanət altında olması istehsal-emal-tədarük zəncirinin qurulmasına və "Tarladan süfrəyə" prinsipinin həyata keçirilməsinə səbəb olacaq.

***E.CƏFƏRLİ***

# Daha güclü maliyyə institutu naminə...

## "Bank Respublika" və "Access Bank" birləşməyi qərara alıb

Azərbaycanın bank sektorunda konsolidasiya (birləşmə) xarakterli addım atılıb. "Bank Respublika" ASC-nin "Access Bank" QSC-nin səhmlərini almasını nəzərdə tutan strateji əqdin əsas şərtləri təsdiqlənib. Hər iki bankın səhmdarlarının razılaşmasına əsasən, əqdin bu ilin noyabr ayına qədər tamamlanması planlaşdırılır. Proses çərçivəsində "Access Bank"ın mövcud səhmdarları "Bank Respublika"nın nizamnamə kapitalının ümumilikdə 25 faizini təşkil edən, yeni buraxılacaq imtiyazlı səhmləri əldə edərək "Bank Respublika"nın səhmdarlarına çevriləcək. Səhmlərin satın alınması başa çatdıqdan sonra "Bank Respublika" və "Access Bank" ilkin mərhələdə ayrı-ayrı banklar kimi fəaliyyətlərini davam etdirəcək. Sonradan vahid bankda birləşdirilməsi müvafiq tənzimləyici tələblərə uyğun həyata keçiriləcək.

Adıçəkilən nüfuzlu və bank bazarında kifayət qədər yüksək payı olan maliyyə təşkilatlarının planlaşdırılan birləşməsi səhmdarların bankların gələcək böyüməsini və inkişafını dəstəkləmək məqsədilə qəbul etdiyi birgə biznes strategiyasına əsaslanır. Hər iki bank Azərbaycanın bütün bölgələrində mikro, kiçik və orta sahibkarlara dəstək göstərilməsinə xüsusi diqqət yetirir. Beləliklə, konsolidasiya nəticəsində hər iki bankın birgə kapital fondu daha geniş fəaliyyət miqyasına, daha güclü maliyyə imkanlarına və daha möhkəm bazar mövqeyinə malik, müştərilərinə daha geniş imkanlar təqdim edən maliyyə institutunun formalaşması mümkün olacaq. Birləşmiş bankın cəmi aktivləri 4,5 milyard manata, kredit portfeli isə 3,3 milyard manata çatacaq.




### Bankların konsolidasiyası davam edəcəkmi?

Qeyd edək ki, bankların konsolidasiyası, iki və ya daha çox bankın birləşərək daha böyük, maliyyə cəhətdən daha dayanıqlı və rəqabətədavamlı tək bir bank təşkil etməsi prosesidir. Bu proses adətən bank sektorunun gücləndirilməsi, kapital çatışmazlığının aradan qaldırılması və sistem risklərinin azaldılması məqsədilə həyata keçirilir. Birləşmə qərarları tamamilə bankların səhmdarlarının biznes strategiyalarına əsaslanır.

"Bank Respublika" və "Access Bank"ın birləşmə qərarı, eləcə də bir müddət əvvəl "Bank BTB" ASC-nin öz aktiv və öhdəliklərini ölkənin ən böyük bankı olan Beynəlxalq Banka ötürərək Bank Olmayan Kredit Təşkilatına (BOKT) çevrilməsi konsolidasiya prosesi kimi səciyyələndirilə bilər. Bu proses yaxın perspektivdə ölkənin bank sektorunda yeni birləşmə və satınalmaların mümkünlüyünü də meydana çıxarır. Çünki hazırda bank bazarında aktivlərini güclə formalaşdıran, öhdəliklərini yerinə yetirməkdə çətinliklərlə üzləşən bir neçə zəif və ya kiçik bank var ki, onların gələcəkdə bağlanmaması üçün ən yaxşı yol məhz sağlam maliyyə institutları ilə birləşmək, yəni konsolidasiya ola bilər. Ələlxüsus da, problemli kredit portfelinin böyüdüyü və bu prosesdə həmin bankların fəal rol oynadığını nəzərə alsaq, mövcud situasiyalar alternativ yol kimi həmin bankların əqdlər əsasında birləşməsini meydana çıxara bilər.

Mərkəzi Bank (MB) isə kommersiya banklarını konsolidasiyaya getməyə məcbur etməsə də, birləşmə təşəbbüslərin qanunvericiliyə, kapital və likvidlik normalarına uyğunluğunu qiymətləndirərək razılıq verdiyini bəyan edir. MB bildirir ki, konsolidasiya ilə bağlı qərarlar, ilk növbədə, bankların səhmdarlarının biznes strategiyası və kommersiya qərarları çərçivəsində formalaşır. Mərkəzi Bankın rolu təşəbbüslərlə çıxış edərək qanunvericiliyin tələblərinə əməl etmək və prudensial meyarlara uyğunluğu qiymətləndirməkdən ibarətdir. Konsolidasiya kommersiya xarakterli danışıqları və konfidensial məlumatları ehtiva etdiyi üçün bu əməliyyat qanunvericiliyə uyğun olaraq yalnız MB-nin razılığı tələb edilən mərhələyə çatdıqda, məsələ müəyyən edilmiş qaydada qiymətləndirilir və ictimaiyyətə açıqlanması tələb olunan məlumatlar müvafiq qaydada təqdim edilir.

### Məcburi yox, könüllü birləşmə...

Hazırda maliyyə sektoru ilə bağlı vəziyyətin təhlili göstərir ki, bank sektorunda müəyyən qüsurlar qalmaqdadır. Nizamnamə kapitalını gücləndirə bilməyən, öhdəlikləri real kapital ehtiyatlarından çox olan banklar mövcuddur. Bu kimi hallar bir çox meyarlara, o cümlədən MB tərəfindən təsdiq edilmiş "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nın tələblərinə cavab vermir. Doğrudur, həmin strategiyada bankların məcburi konsolidasiyasına dair hər hansı təşəbbüs nəzərdə tutulmayıb. Ancaq bank sektorunda artan risklər fonunda bəzi kommersiya banklarının öz təşəbbüsü ilə sektorun dayanıqlığının gücləndirilməsinə xidmət edən konsolidasiyaya getməsi məqsədəuyğun hesab edilə bilər.

### Konsolidasiya maliyyə dayanıqlığını gücləndirə bilər

Konsolidasiya maliyyə dayanıqlığı baxımından mühüm addımlardan biridir. Bu strateji qərarlar kiçik və zəif bankların kapital bazasının birləşdirərək gücləndirir, bu da onların böhranlara dözümlülüyünü artırır. Eləcə də xərcləri optimallaşdırır. İki ayrı bankın baş ofis, İT infrastrukturu, marketinq və inzibati xərcləri birləşdirilərək tək bir bankın idarəetmə xərclərinə çevrilir və bu baxımdan səmərəlilik artır. Həmçinin, bank bazarında onların rəqabət qabiliyyəti artır. Bazar payını böyüdən banklar vahid fəaliyyət çərçivəsində öz müştəri bazasını genişləndirir, nəticədə iri layihələri, korporativ müştəriləri maliyyələşdirmək imkanı yaranır. Konsolidasiya prudensial tələblər baxımından da əhəmiyyət daşıyır. Mərkəzi Bankın müəyyən etdiyi məcburi prudensial normativləri (məsələn, minimum məcmueyi kapital tələbi) təkbaşına qarşılaya bilməyən banklar belə risklər tam neytrallaşır.

***E.CƏFƏRLİ***

# Ağdam-Xankəndi dəmir yolunun tikintisinin 48 faizi başa çatıb

Qarabağın yeni nəqliyyat marşrutlarından biri olacaq Ağdam-Xankəndi dəmir yolu xəttinin bərpası davam edir.

"Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, dəmir yolu xətti üzrə layihələndirmə işlərinin 90 faizi, tikinti işlərinin isə 48 faizi, başa çatıb.

Qeyd edək ki, ümumi uzunluğu 30,8 kilometr olan dəmir yolu xətti boyunca 6 körpü, 5 avtomobil alt keçidi, 2 piyada keçidi və 47 ehtiyat keçid də daxil olmaqla, ümumilikdə 130 mühəndis qurğusunun inşası nəzərdə tutulur.

Ağdam-Xankəndi dəmir yolu xətti üzrə inşa olunacaq Əsgəran və Xocalı stansiyalarının konsept layihələri artıq tamamlanıb. Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin isə tikinti işləri sürətlə davam etdirilir və hər gün yüzlərlə sərnişini qarşılayacaq.



# Türkiyə Prezidenti BMT TŞ daimi üzvlərinin veto hüququnu ləğv etməyə çağırıb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Təhlükəsizlik Şurasında hərtərəfli islahatların aparılmasına, o cümlədən daimi üzvlərin veto hüququnun ləğv edilməsinə çağıraraq qeyd edib ki, beynəlxalq sistem bugünkü qlobal reallıqları daha yaxşı əks etdirməlidir.

AZƏRTAC Türkiyə mediasına istinadla xəbər verir ki, Ərdoğan "Bloomberg" üçün yazdığı "Dəyişən dünyada qlobal ədalət axtarışı" adlı məqaləsində pandemiyalar, enerji şokları, təchizat zəncirlərindəki fasilələr və regional münaqişələr də daxil olmaqla, son böhranların qlobal problemlərin həllini bir neçə paytaxtın qərarlarına buraxmağın doğru olmadığını göstərdiyini vurğulayıb. O əlavə edib ki, qlobal qərar qəbuletmə mexanizmləri artıq bugünkü şərtlərə uyğunlaşmalı, BMT Təhlükəsizlik Şurasında İkinci Dünya müharibəsindən sonra qurulmuş struktur aradan qaldırılmalıdır.

R. T. Ərdoğan daha təsirli, ədalətli və hesabatlı təmsilçilik sisteminin zəruri olduğunu qeyd edib və qlobal qərar qəbuletmədə daha geniş iştiraka çağırıb. O, Türkiyənin "dünya beşdən böyükdür" tezisinin beynəlxalq sistemdə məsuliyyətin daha geniş bölüşdürülməsinə çağırış kimi başa düşülməli olduğunu bildirib. Türkiyə Prezidenti əlavə edib ki, illərdir BMT TŞ veto hüququna malik 5 üzvün - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çinin qeyri-mütənasib təsiri ilə üzləşir. Onun sözlərinə görə, islahat ehtiyacını konkret yol xəritəsinə çevirmək vacibdir. Bu yol xəritəsinin mərkəzində veto imtiyazının ləğvi dayanmalıdır. Ərdoğan əlavə edib ki, islahatlar heç bir ölkənin beynəlxalq ictimaiyyətin əksəriyyətinin iradəsini bloklamaq üçün daimi imtiyaza malik olmaması prinsipinə əsaslanmalıdır.

# Makron Ukraynaya yeni dəstək tədbirlərini açıqlayıb



Fransa Prezidenti Emmanuel Makron Nyu-Yorkda Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdən sonra Ukraynanın hava hücumundan müdafiəsinin gücləndirilməsi üçün yeni tədbirlər açıqlayıb. Makron bildirib ki, Fransa Ukraynanın qarşıdan gələn qış dövrünə hazırlıq görməsinə dəstək verəcək.

AZƏRTAC xəbər verir ki, bu haqda Fransa Prezidenti sosial şəbəkədə yazıb. Bildirib ki, Rusiyanın Ukraynanın enerji infrastrukturuna zərbələri milyonlarla ailənin istilik və elektrik enerjisindən məhrum qalması təhlükəsini yaradır. O, bu məsələdə Fransanın və G7-nin Ukraynaya dəstək verəcəyini deyib.

Makron Ukraynanın hava hücumundan müdafiəsinin gücləndirilməsi çərçivəsində radarların tədarükü üzrə müqavilənin imzalanacağını, həmçinin raketlərin veriləcəyini açıqlayıb. Fransa və İtaliya daha əvvəl də Ukraynaya SAMP/T sistemləri, radarlar və "Aster 30" raketlərinin tədarükü ilə bağlı planlarını açıqlamışdı.

Makron, həmçinin ABŞ Prezidenti Donald Trampla Ukraynaya əlavə müdafiə dəstəyi məsələsini müzakirə etdiyini bildirib. Tərəflər enerji obyektlərinə zərbələrin dayandırılması və Qara dənizdə moratorium perspektivini də nəzərdən keçiriblər.

Fransa Prezidenti qeyd edib ki, bu məsələlər davam etdirilməsi nəzərdə tutulan danışıqların gündəliyində olacaq və məqsəd ədalətli və davamlı sülhə nail olmaqdır.

# Gənclərin elmi-mədəni mühitə inteqrasiyasında könüllülük fəaliyyətinin rolu

Azərbaycanda qarşılıqlı yardım, xeyriyyəçilik və ictimai həmrəylik ənənələri tarixən mövcud olmuşdur. Müasir dövrdə isə dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən biri kimi formalaşmışdır. Ölkəmizdə könüllü fəaliyyətinin təşəkkülü və sistemli inkişafı dövlət gənclər siyasətinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Bu siyasətin ideoloji və mənəvi əsasları Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış, müasir dövrdə isə Prezident İlham Əliyev tərəfindən yeni mərhələyə yüksəldilmişdir. Dövlət başçısı gəncləri ölkənin strateji inkişaf resursu kimi dəyərləndirərək onların ictimai fəallığının artırılmasına, dövlət və cəmiyyət həyatında yaxından iştirakına xüsusi önəm vermişdir. Bu yanaşma, könüllülük fəaliyyətinin də dövlət səviyyəsində təşviq olunmasına və dəstəklənməsinə geniş imkanlar yaratmışdır.

Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda könüllülük fəaliyyəti hüquqi və təşkilatı baxımdan ardıcıl şəkildə möhkəmləndirilmişdir. 2009-cu ildə "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi könüllülük fəaliyyətinin hüquqi çərçivəsini müəyyən etmişdir. Sonrakı dövrdə həmin qanunun icrası dövlət proqramları və müxtəlif mexanizmlər vasitəsilə daha da genişləndirilmişdir. Bu siyasətin davamı kimi ölkə Prezidentinin müvafiq sərəncamı ilə 2020-ci ilin respublikamızda "Könüllülər ili" olaraq qeyd edilməsi bu fəaliyyət növünün ölkəmizdə genişlənməsinə təkan oldu.

Uğurlu nəticələrindən biri kimi 2012-ci ildə ASAN Xidmət mərkəzlərinin yaradılması və könüllülərin bu prosesə fəal şəkildə cəlb edilməsi olmuşdur. ASAN Xidmət modeli Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyində şəffaflığın, vətəndaş məmnunluğunun və gənclərin fəal iştirakının təmin olunmasına yönəlmiş mühüm islahatlardan biri kimi dəyərləndirilmişdir. Bu model ilk dəfə olaraq könüllülüyü dövlət xidmətləri, gənclərin iştirakı və ictimai məsuliyyət anlayışı ilə birləşdirərək davamlı və nümunəvi platforma formalaşdırdı. ASAN Könüllüləri hərəkatı könüllülüyün epizodik yardım fəaliyyəti deyil, peşəkar təcrübə, sosial bacarıqlar və vətəndaş məsuliyyəti məktəbi olduğunu cəmiyyətə nümayiş etdirdi və qısa müddətdə digər sahələr üçün də örnəyə çevrildi. Bununla yanaşı, Bir Könüllü proqramı gənclərin dövlət qurumlarında, ictimai tədbirlərdə və sosial layihələrdə fəal iştirakını təşviq edən mühüm platforma kimi formalaşdı. Sosial yönümlü könüllülük fəaliyyəti isə cəmiyyətin həssas təbəqələrinə dəstək göstərilməsini, xeyriyyə və humanitar təşəbbüsləri əhatə etdi. Bu istiqamətdə DOST Könüllüləri proqramı mühüm rol oynayaraq yaşlılar, əlilliyi olan şəxslər və aztəminatlı ailələrlə işin genişlənməsinə töhfə verdi. Eyni zamanda bir sıra humanitar təşəbbüslər Heydər Əliyev Fondu çərçivəsində həyata keçirilən könüllü fəaliyyətlər vasitəsilə reallaşdırıldı.

Nəticə etibarilə, Azərbaycanda könüllülük fəaliyyəti tədricən dövlət qurumlarını, təhsil müəssisələrini, mədəniyyət və elm sahələrini əhatə edən geniş ictimai hərəkat xarakteri aldı. Gənclərin könüllülük fəaliyyətinə marağı artdı, müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış könüllü proqramları formalaşmağa başladı. Könüllülük gənclər üçün sosial fəallıqla yanaşı, şəxsi inkişaf peşə yönümü və ictimai fayda anlayışlarının vəhdətinə çevrildi.



*Şəbnəm Rüstəmova,*
*AMEA Mərkəzi Elmi Kitabxanasının elmi katibi, MEK könüllüləri üzrə məsul şəxs*

Son illər könüllülük fəaliyyəti təhsil, ekologiya, media, mədəniyyət və kitabxana sahələrində daha da genişlənmişdir. Təhsil könüllülüyü gənclərin bilik və təcrübələrini paylaşmasına, mentorluq və maarifləndirmə fəaliyyətlərində iştirakına imkan yaradır. Ekoloji könüllülük ətraf mühitin mühafizəsi, ağacəkmə və ekoloji maarifləndirmə təşəbbüsləri vasitəsilə gənclərdə davamlı inkişaf düşüncəsini formalaşdırır. Rəqəmsal və media könüllülüyü isə sosial media, kontent istehsalı və informasiya dəstəyi vasitəsilə müxtəlif sosial, mədəni və elmi layihələrin tanıdılmasında mühüm rol oynayır. Kitabxana könüllülüyü isə gənclərin kitabxana və informasiya resursları ilə işləmək, biblioqrafik və informasiya xidmətlərinin təşkilində iştirak etmək, kitabxana fondlarının və mədəni irsin təbliğinə töhfə vermək, eləcə də elmi-mədəni tədbirlərin keçirilməsində praktiki təcrübə qazanmasına şərait yaradır.

AMEA Mərkəzi Elmi Kitabxanası da öz fəaliyyətində könüllülük prinsipinə və könüllülərin inkişafına xüsusi önəm verir.

"MEK könüllüləri" proqramı 9 iyun 2009-cu il tarixli 828-IIIQ nömrəli "Könüllü fəaliyyəti haqqında" Qanun əsasında formalaşdırılmış, 24 iyun 2024-cü il tarixli 238 nömrəli əmr ilə bu dövlət siyasətinin məntiqi davamı olaraq rəsmiləşdirilmişdir. "MEK könüllüləri" hərəkatı kitabxananın gündəlik işi ilə gənclərin enerjisini birləşdirən, bilik mühitini cəmiyyətə daha yaxın edən xüsusi bir təşəbbüs kimi qısa müddətdə diqqət çəkdi. Bu hərəkat MEK üçün sadəcə "könüllü dəstəyi" deyil: elektronlaşma, informasiya xidmətinin yenilənməsi və oxucu ilə əlaqənin güclənməsi kimi strateji istiqamətlərin gənclərin iştirakı ilə sürətlənməsidir.

Hüquqi dayağın olması könüllülüyü "təsadüfi yardım" çərçivəsindən çıxarır, onu məqsədli, ölçülə bilən və davamlı institusional mexanizmə çevirir. Yəni burada könüllülük həm gəncin inkişafı, həm də kitabxananın modernləşməsi üçün qarşılıqlı fayda yaradan əməkdaşlıq modeli kimi qurulur.

Bu layihənin gerçəkləşməsi AMEA Mərkəzi Elmi Kitabxanası rəhbərliyinin kitabxanaya, oxucuya və ümumilikdə milli mədəniyyətə verdiyi yüksək dəyərin bariz ifadəsidir. Könüllülük təşəbbüsünün AMEA miqyasında ilk dəfə məhz MEK-də reallaşmasına dəstək göstərən, bu ideyanın həyata keçməsinə prinsipial mövqeyi və strateji baxışı ilə "yaşıl işıq" yandıran AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli elmi-mədəni mühitə inteqrasiyasına verdiyi önəmi bu təşəbbüslə bir daha nümayiş etdirmişdir.

Layihənin ilk günündən etibarən onun uğuruna inanaraq təşkilati proseslərdə yaxından iştirak edən, könüllülük ideyasının real və davamlı mexanizmə çevrilməsi üçün bütün imkanları səfərbər edən MEK-in direktoru, texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov bu proqramın formalaşmasında əsl komanda lideri mövqeyi sərgiləmişdir.

"MEK könüllüləri" proqramı gənclərlə elm arasında canlı və davamlı körpü yaradaraq onların elmi düşüncə tərzinin formalaşmasına, tədqiqat mədəniyyətinə yiyələnməsinə və biliklə məsuliyyətə davranış vərdişlərinin inkişafına şərait yaradır. Könüllülər kitabxananın müxtəlif struktur bölmələrində fəaliyyət göstərməklə elmi-informasiya dövriyyəsinin real iştirakçısına çevrilir, bu isə onların gələcək akademik və peşəkar inkişafına mühüm töhfə verir.

Bu proqram eyni zamanda dövlətin könüllülük siyasətində gənclərin intellektual inkişafına verilən önəmin praktik təzahürüdür. Sosial fəallıqdan intellektual fəallığa keçidi təmin edən "MEK könüllüləri" təşəbbüsü könüllülüyün yeni mərhələsini - bilik yönümlü, elmi əsaslı və davamlı könüllülük modelini formalaşdırır. Bu model gənclərin elmin inkişafına töhfə verən fəal subyektlər kimi yetişməsinə xidmət edir.

"MEK könüllüləri" təşəbbüsünün ideyası mahiyyət etibarilə sadə, lakin strateji baxımdan çoxşaxəlidir: gənclərə kitabxana işini öyrətmək və kitabxananın müasir dönüşümünü məhz gənclərin fəal iştirakı ilə sürətləndirmək. Bu ideyanın mərkəzində gənclərin kitabxana işi üzrə praktiki biliklər qazanması, peşə yönümünün formalaşması və real iş mühitində özünü sınaması dayanır. Eyni zamanda proqram MEK-də elektron kataloq və elektron kitabxananın inkişafını, rəqəmsallaşdırma prosesinin daha dinamik şəkildə həyata keçirilməsini hədəfləyir. Könüllülərin iştirakı oxuculara xidmətin həm ənənəvi, həm də elektron mühitdə daha çevik, funksional və müasir səviyyədə qurulmasına imkan yaradır. Bütün bu proseslər kitabxananın cəmiyyətlə əlaqələrinin möhkəmlənməsinə, MEK-in sosial platformalarda tanınırlığının artırılmasına və kitabxananın açıq, canlı ictimai məkan kimi təqdim olunmasına xidmət edir.

"MEK könüllüləri" proqramında iştirak edən gənclər təsadüfi şəkildə seçilmir. Könüllülük burada əvvəlcədən elan olunmuş müsabiqə əsasında aparılan ciddi seçim prosesinin nəticəsidir. İntizam, operativlik, işgüzarlıq, kompüter və dil bilikləri, eləcə də ixtisas uyğunluğu əsas meyarlar kimi qiymətləndirilir. Seçim əvvəlcə CV-lərin dəyərləndirilməsi ilə başlanır, növbəti mərhələdə isə namizədlərlə müsahibələr keçirilir. Bu yanaşma proqramın gəncləri sadəcə işə cəlb etmədiyini, onları məqsədli şəkildə seçdiyini, ölçdüyünü, hazırladığını və formalaşdırdığını göstərir.

Seçilmiş könüllülər üç aylıq proqram çərçivəsində təlimlərdə iştirak edir, sosial bacarıqlar və əmək vərdişləri qazanır, kitabxanaçılığın müxtəlif istiqamətlərini real iş mühitində öyrənirlər. Proqramı müvəffəqiyyətlə tamamlayan könüllülərə sertifikat təqdim olunur. Fəaliyyəti ilə seçilən gənclər isə tövsiyə məktubu ilə mükafatlandırılır.

"MEK könüllüləri"nın fəaliyyəti kağız üzərində yazılmış bəndlərlə məhdudlaşmır; onların işi kitabxananın canlı həyatına birbaşa toxunur. Könüllülər MEK-in struktur bölmələrinin gündəlik fəaliyyətinə dəstək verir, tədbirlərin təşkilində iştirak edir, kitabxanaya yeni gələn oxucuları qarşılayıb yönləndirir, müraciət formalarının doldurulmasına kömək edir, mütaliə və kitab seçimi ilə bağlı məlumatlandırma aparırlar.

2024-cü ildən etibarən həyata keçirilməyə başlanmış "Açıq qapı" günləri isə könüllülərin MEK-in ictimaiyyətə açıq və şəffaf təqdimatında oynadıqları rolu daha qabarıq şəkildə ortaya qoymuşdur. Bu günlər ərzində könüllülər ziyarətçilərin kitabxana məkanında ekskursiya edilməsində, fondlar, oxu zalları, elektron resurslar və xidmət istiqamətləri barədə ətraflı məlumat verilməsində yaxından iştirak etmişlər. Onların birbaşa ünsiyyəti və istiqamətləndirici fəaliyyəti sayəsində MEK yalnız elmi-informasiya mərkəzi kimi deyil, eyni zamanda açıq, canlı və cəmiyyətlə inteqrasiya olunmuş mədəni məkan kimi təqdim edilmişdir.

Könüllülərin fəal iştirakı "Açıq qapı" günlərini formal tanıtım tədbiri çərçivəsindən çıxararaq interaktiv və səmimi görüş platformasına çevirmiş, ziyarətçilərlə kitabxana arasında canlı dialoqun qurulmasına şərait yaratmışdır. Xüsusilə gənclərin və kitabxanaya ilk dəfə gələn ziyarətçilərin MEK-ə marağının artmasında bu ünsiyyət mühitinin mühüm rolu olmuşdur.

Rəqəmsal müstəvidə də könüllülərin fəaliyyətinin real nəticələri müşahidə edilmişdir. Sosial şəbəkələrin aktivləşdirilməsi istiqamətində könüllülərin təşəbbüsü ilə qısa müddət ərzində 200-dən artıq paylaşım edilmiş, yüzlərlə yeni izləyici cəlb olunmuş, səhifələrə baxış sayı 50 mini keçmişdir. Bu göstəricilər təkcə statistik rəqəmlər deyil, MEK-in auditoriya ilə əlaqələrinin genişləndiyini və kitabxananın rəqəmsal məkanda daha görünən və əlçatan olduğunu təsdiqləyən mühüm faktlardır.

Könüllülərin gündəlik fəaliyyəti üç növbə üzrə saat 10:00-13:00, 14:00-17:00 və 18:00-21:00 aralığında təşkil olunur. Bu iş qrafiki kitabxananın fəaliyyət ritminə uyğun olmaqla yanaşı, gənclərin təhsil və şəxsi planları ilə tarazlıq yaratmağa imkan verir, könüllülük fəaliyyətinin davamlı və əlçatan olmasını təmin edir.

Xüsusilə önəmli istiqamətlərdən biri yaşlı və əlilliyi olan oxuculara göstərilən diqqət və qayğıdır. Könüllülər bu kateqoriyadan olan oxucuların kitabxana xidmətlərindən daha rahat istifadə etməsinə dəstək olur, kitabxanaya gələ bilməyənlər üçün qeyri-stasionar xidmətin təşkili prosesində yardımçı rol oynayırlar. Bu yanaşma kitabxananın yalnız bilik mərkəzi deyil, eyni zamanda sosial məsuliyyət daşıyan ictimai məkan olduğunu bir daha nümayiş etdirir.

İnklüziv xidmətlərin inkişafında "MEK könüllüləri"nın rolu xüsusilə diqqətəlayiqdir. MEK-də müxtəlif kateqoriyadan olan istifadəçilər üçün bərabər informasiya əlçatanlığının təmin olunması məhz könüllülərin fəal iştirakı ilə real məzmun qazanmışdı. Audio resursların, danışan kitabların və audio-teatr formatında materialların hazırlanması və istifadəyə verilməsi prosesində könüllülər bilavasitə iştirak edərək inklüziv kitabxana mühitinin formalaşmasına əməli töhfə vermişlər. 2024-cü ildən etibarən MEK-də tətbiq olunmağa başlayan inklüziv kitabxana təşəbbüslərinin icrasında "MEK könüllüləri" hərəkatı aparıcı qüvvələrdən biri kimi çıxış etmişdir. Xüsusilə proqramın ikinci çağırışı çərçivəsində fəaliyyətə başlayan könüllülər qrupu səsləndirmə layihələrinin təşkili, audio materialların hazırlanması, onların sistemləşdirilməsi və oxuculara təqdim edilməsi mərhələlərində fəallıq göstərmişdir. Bu proses könüllülərin yalnız texniki dəstəkçi deyil, eyni zamanda sosial məsuliyyət daşıyan və inklüzivlik dəyərlərini praktik müstəvidə həyata keçirən iştirakçılar olduğunu nümayiş etdirmişdir.

Müasir kitabxana xidmətinin mərkəzində dayanan elektron resurslarla işləmək də könüllülərin fəaliyyətinin əsas istiqamətlərindəndir. Onlar oxuculara həm ənənəvi, həm də elektron kataloqdan, elektron kitabxanadan istifadə qaydalarını izah edir, praktik və əməli yardım göstərirlər. Bu proses oxucuların informasiya resurslarına daha sürətli və səmərəli çıxışını təmin edir.

Könüllülüyün əsas gücü isə çox vaxt səhnədə deyil, arxa planda görünməyən, lakin dayanıqlı əməyin içində üzə çıxır, MEK-də könüllülər fondların təşkili, sənədlərin sistemləşdirilməsi, kartoçkaların hazırlanması, biblioqrafik işlər, texniki işləmə, elektron kataloqa daxil etmə, rəqəmsallaşdırma, reproqrafiya və inklüziv səsləndirmə layihələri kimi istiqamətlərdə real iş yükünü paylaşaraq kitabxananın funksional fəaliyyətinə mühüm töhfə vermişlər. Məhz bu səssiz, lakin ardıcıl əmək kitabxananın müasir inkişafını təmin edən əsas dayaqlardan birinə çevrilmişdir.

Onların fəaliyyəti nəticəsində fondlarda inventar üzrə minlərlə kitabın sıralanması, arxiv materiallarının sistemləşdirilməsi, biblioqrafik göstərici və informasiya bülleteni üçün yüzlərlə kitab haqqında məlumatın toplanması, müxtəlif şöbələrdə kitab, jurnal və avtoreferatların texniki işlənməsi və EK-ya daxil edilməsi, rəqəmsal resursların sayt və elektron kitabxana üçün hazırlanması, yüzlərlə kitabın skan və konvertasiyası inklüziv kitabxana üçün səsləndirmə işləri, sosial və mədəni kontentin hazırlanması (slaydlar, booktrailer və videoçarxlar) kimi işlər həyata keçirildi.

Bundan əlavə, 2024-2026-cı illər ərzində "MEK könüllüləri" AMEA Mərkəzi Elmi Kitabxanasının daxili tədbirlərində, eləcə də respublika və beynəlxalq səviyyəli elmi-mədəni fəaliyyətlərdə yüzdən artıq tədbir və layihədə fəal iştirak edərək proqramın miqyasını və təsir dairəsini aydın şəkildə ortaya qoymuşlar. "Açıq mikrofon" günləri, "Biblioqrafik sorğu və sənəd sifarişinin aparılması mövzusunda videotəlimatın hazırlanması və təqdimatı, Bakı Ekspo Mərkəzində keçirilən X və XI Beynəlxalq Bakı Kitab Sərgisi, "Mütaliə insanı kamilləşdirir" adlı videoçarx layihəsi, eləcə də COP29 çərçivəsində reallaşdırılan ekoloji təşəbbüslər "Ekoloji təmizlik" aksiyası, "MEK könüllüləri"nin MEK-ə yaşıl töhfəsi aksiyası, həmçinin Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İlinə töhfə olaraq "Memarlığın zamanla ritmi", "Bir binanın yaddaşı" və "Böyük kitabxananın mini dünyası" adlı layihələrin hazırlanması könüllülərin həm maarifləndirici, həm də sosial məsuliyyət yönümlü fəaliyyətlərdə nə qədər fəal olduqlarını nümayiş etdirmişdir.

Eyni zamanda könüllülər beynəlxalq elmi simpoziumlarda, "Açıq qapı" təşəbbüslərində, Elm Gününə həsr olunmuş tədbirlərdə, Ümumdünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə təşkil edilən sərgi və təqdimatlarda, lektoriyalarda, eləcə də MEK-in təşkilatçılığı ilə keçirilən "Kitabxana-informasiya texnologiyalarının inkişafında müasir tendensiyalar" mövzusunda respublika elmi konfransında və Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə kitabxana-informasiya fəaliyyətində innovasiyalar: ənənəvi və elektron mənbələrin yaradılıması və istifadəsi" adlı beynəlxalq elmi konfransda fəal iştirak etmişlər.

Bu geniş spektrli fəaliyyətlər göstərir ki, "MEK könüllüləri" elmi-mədəni mühitin formalaşmasında, biliklərin cəmiyyətə çatdırılmasında və kitabxananın ictimai rolunun gücləndirilməsində aktiv iştirak edən tərəfdaşlara çevrilmişlər. Məhz bu dinamika sübut edir ki, "MEK könüllüləri" davamlı və sistemli bir könüllülük hərəkatının adıdır.

Proqramın üçüncü qəbul mərhələsi bu marağın miqyasını daha aydın ortaya qoyur. 351 müraciət, 198 namizədin ikinci mərhələyə buraxılması və yekunda 25 gəncin seçilməsi planı "MEK könüllüləri"nin gənclər üçün nə qədər cəlbedici platformaya çevrildiyini sübut edir. Daha önəmlisi isə bu proqram yalnız kitabxanaçılıq ixtisası ilə məhdudlaşmır. Tarix, filologiya, dövlət idarəçiliyi, jurnalistika, kompüter elmləri, informasiya təhlükəsizliyi, mühəndislik, psixologiya, sosial iş və digər sahələrdən olan gənclərin bir araya gəlməsi MEK-in nə qədər interdisiplinar bir məkana çevrildiyini bir daha təsdiqləyir, onun elm, informasiya, kommunikasiya və xidmət mədəniyyətinin qovşağı olduğunu göstərir.

MEK könüllüləri hərəkatı qısa müddətdə sübut etdi ki, könüllü gənc yaradan, təşəbbüs göstərən, məsuliyyəti paylaşan və mədəniyyət daşıyan etibarlı tərəfdaşdır. Bu təşəbbüs MEK-in xidmətlərini daha geniş auditoriyaya çıxarır, elektronlaşma prosesini sürətləndirir, oxucu ilə münasibətləri möhkəmləndirir və ən əsası gəncləri elmi-informasiya mühitinin içində formalaşdırır.

AMEA-da ilk kimi başlayan bu proqram bu gün AMEA Mərkəzi Elmi Kitabxanasında artıq biliklə gənclik arasında qurulan canlı və dayanıqlı körpüyə çevrilmişdir. Bu körpü bir tərəfdən kitabxananın yüzillik elmi ənənəsini, intellektual irsini və institusional yaddaşını daşıyırsa, digər tərəfdən gənclərin enerjisini, yaradıcılığını və yeniliyə açıq baxışını birləşdirir.

"MEK könüllüləri" hərəkatı könüllülüyün davamlı inkişaf mexanizmi kimi səciyyələndirdi. Bu təşəbbüs kitabxananın xidmət modelini yeniləyir, rəqəmsal transformasiyanı sürətləndirir, oxucu ilə münasibətlərə yeni dinamika gətirir və gəncləri elmi-informasiya mühitinin fəal iştirakçısı kimi formalaşdırır.

Qeyd edək ki, MEK-in könüllülük proqramında iştirak etmiş gənclərin bir qismi sonradan Mərkəzi Elmi Kitabxanada işlə təmin olunmuş, digər bir qismi isə əldə etdikləri bilik, bacarıq və praktiki təcrübə sayəsində müxtəlif kitabxanalarda və digər müvafiq müəssisələrdə əmək fəaliyyətinə başlamışdır. Bu göstəricilər könüllülük proqramının gənclərin peşəkar inkişafına, əmək vərdişlərinin formalaşmasına və gələcək karyera imkanlarının genişləndirilməsinə mühüm töhfə verdiyini nümayiş etdirir.

# “Vahid Rusiya” rekordunu yeniləyib




## Hakim partiya Dövlət Dumasında 355 yer qazanıb

Rusiyada IX çağırış Dövlət Dumasına deputat seçkilərinin ilkin nəticələri məlumdur. Dövlət Dumasına seçkilərdə səsvermə sentyabrın 18-dən 20-dək keçirilib. Federal seçki dairəsi üzrə 10 partiyanın siyahısı qeydə alınıb. Bunlar “Vahid Rusiya”, Rusiya Federasiyası Kommunist Partiyası (KPRF), Rusiya Liberal Demokrat Partiyası (LDPR), “Yeni insanlar”, “Ədalətli Rusiya”, “Sosial ədalət naminə Rusiya Pensiyaçılar Partiyası”, “Rusiya kommunistləri”, “Vətən”, “Yaşıllar” Rusiya Ekoloji Partiyası və Birbaşa Demokratiya Partiyasıdır. Rusiya vətəndaşları üçün xaricdə də səsvermə təşkil olunub.

Partiya siyahıları üzrə protokolların 94,41 faizi işləndikdən sonra “Vahid Rusiya” 57,83 faiz səs toplayıb. Sonrakı yerlərdə 13,81 faiz səslə Kommunist Partiyası, 8,96 faizlə Liberal Demokrat Partiyası (LDPR), 7,97 faizlə “Yeni insanlar” və 4,96 faiz səslə “Ədalətli Rusiya” partiyası qərarlaşıb. Sonuncu partiya hazırda 5 faizlik baryeri keçə bilməyib və Dövlət Dumasına düşməmək təhlükəsi ilə üzləşirdi. Rusiya Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilova isə bu partiyanın Dövlət Dumasına düşmək şansının qaldığını bildirmişdi.

Birmandatlı seçki dairələri “Vahid Rusiya”ya daha çox yer qazandırıb. Hazırda partiya 225 dairədən 209-da liderdir. Kommunist Partiyası isə 5 mandat əldə edib.

Ella Pamfilova bəyan edib ki, Rusiyanın hakim partiyası - “Vahid Rusiya” Dövlət Dumasında ən çox yer əldə edəcək: “İlkin olaraq, “Vahid Rusiya”nın Dövlət Dumasında 355, Kommunist Partiyasının 40, Rusiya Liberal-Demokrat Partiyasının 25, “Yeni insanlar”ın 20, “Ədalətli Rusiya”nın isə hələlik 4 yeri olacaq”. Onun sözlərinə görə, seçki kampaniyası sakit keçib. MSK sədri, həmçinin qeyd edib ki, Dövlət Dumasına keçirilmiş seçkilərdə seçici fəallığı 59,32 faiz təşkil edib, 62,6 milyondan çox vətəndaş səs verib. Təqdim olunan məlumatlara görə, səsvermədə 62 milyon 619 min 380 seçici iştirak edib.

Beləliklə, Rusiya Mərkəzi Seçki Komissiyasının açıqladığı son məlumatlar göstərir ki, “Vahid Rusiya” IX çağırış Dövlət Dumasında sadəcə konstitusiya çoxluğu deyil, həmçinin tarixində ən böyük fraksiyanı əldə edir. Əvvəlki rekord 2016-cı il seçkilərinin nəticələrinə əsasən əldə edilmiş 343 mandat olub.

Rusiya Prezidenti Vladimir Putin isə IX çağırış Dövlət Dumasına deputat seçkilərində distant qaydada səs verib. Kremlin mətbuat xidmətinin yaydığı görüntülərdə Vladimir Putin iş kabinetində kompüter qarşısında əyləşərək distant elektron səsvermə sistemi vasitəsilə səsini verib. Son illərdə V.Putin əsasən elektron səsvermə üsulundan istifadə edir. 2024-cü ildə dövlət başçısı prezident seçkilərində və Moskva Şəhər Dumasına deputat seçkilərində də distant qaydada səs verib. Bundan əvvəl də o, payız seçkiləri, o cümlədən Moskva meri seçkiləri zamanı onlayn səsvermədə iştirak edib.

Qeyd edək ki, IX çağırış Dövlət Duması 450 deputatdan ibarət olacaq. Onlardan 225 mandat federal partiya siyahıları üzrə, digər 225 mandat isə birmandatlı seçki dairələri üzrə bölüşdürülür. Yeni çağırışın səlahiyyət müddəti 5 il olacaq. Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilovanın sözlərinə görə, seçkilərin yekun nəticələri sentyabrın 25-dən tez olmayaraq açıqlanacaq. O deyib ki, bu müddət Mərkəzi Seçki Komissiyasının baxmasını tələb edən şikayətlərin daxil olması ehtimalı nəzərə alınaraq müəyyənləşdirilib. Ona görə də, rəqəmlərin müəyyən dəyişikliklərə məruz qalacağı istisna deyil.

Xatırladaq ki, səsverməni 133 ölkədən 1,2 mindən çox beynəlxalq müşahidəçi izləyib. Səsvermənin gedişini Azərbaycan Milli Məclisinin deputatları da müşahidə edib. Rusiyaya yollanan nümayəndə heyətinin tərkibinə parlament komitəsinin sədri Azər Əmiraslanov, deputatlar Fatma Yıldırım, Anar Məmmədov, Eyvaz Qurbanov və Sabir Hacıyev daxil olublar. Deputatlar seçki prosesini Moskva və Sankt-Peterburqda müşahidə ediblər. Azərbaycanlı millət vəkilləri seçki məntəqələrinin fəaliyyətinin təşkili, səsvermə proseduru və səslərin hesablanması qaydası ilə də tanış olublar.

*N.BAYRAMLI*

# Aİ yeni ticarət tərəfdaşları axtarışında

Hazırda müharibələrin yalnız real döyüş meydanlarında aparılmadığı hər kəsə bəllidir. Güc mərkəzləri taktiki və strateji maraqları naminə tez-tez digər təzyiq vasitələrinə də əl atırlar. Təəssüf doğuran haldır ki, dövlətlərarası ticarətin də bir sıra hallarda belə təzyiq alətinə çevrildiyi müşahidə edilir ki, bu da ölkələri yeni seçimlər etmək məcburiyyətində qoyur.

O cümlədən son vaxtlarda 27 dövlətin yer aldığı Avropa İttifaqı (Aİ) da ticarət trayektoriyasının dəyişdirilməsi zəruriliyindən çıxış edir. Artıq bu istiqamətdə praktiki müstəvidə addımlar da atılır. Buna əsas səbəblər kimi isə ABŞ-ın Aİ-yə münasibətdə daha sərt tarif siyasətinə keçəcəyinin anonsunu verməsi, həmçinin Çinin Avropa bazarlarını “zənt etməsi”nə görə daxili istehsal üçün risklərin yaranması göstərilir.

## Almaniya Kanslerinin çağırışı: Biz yeni ticarət tərəfdaşları qazanmalı və asılılıqları azaltmalıyıq

Almaniya Kansleri Fridrix Merts Avropa İttifaqının Çinlə ticarətdə artan disbalans və asılılıqlara qarşı daha fəal siyasət yürütməli, eyni zamanda, yeni ticarət tərəfdaşları qazanmalı olduğunu bildirib.

Kansler alman sahibkarların toplantısında çıxışı zamanı son onilliklərdə qlobal ticarət münasibətlərinin fundamental şəkildə dəyişdiyini deyib. Onun sözlərinə görə, Çin bazar iqtisadiyyatına xas dinamikanı dövlət müdaxilələri, artıq istehsal gücləri, qiymət siyasəti, dəyəri aşağı salınmış valyuta və yüksək səviyyədə subsidiyalaşdırılan ixracla birləşdirir. Bu vəziyyət Avropa şirkətlərinə həm Aİ-nin daxili bazarında, həm də üçüncü ölkələrin bazarlarında ciddi təzyiq yaradır. Kansler Aİ-nin 27 üzvünün hamısının Çinlə ticarətdə kəsirlə üzləşdiyini, ümumi kəsirin isə ildə 300 milyard avrodan çox olduğunu bildirib: “Bu gün artıq Avropa İttifaqında Çin Xalq Respublikası ilə ticarət balansında profisitə malik olan bir ölkə də yoxdur”, - deyə Kansler vurğulayıb.

F.Merts Almaniyanın ənənəvi əsas sənaye sahələrində - avtomobil, maşınqayırma və kimya sənayesində alman və Çin şirkətlərinin getdikcə daha çox birbaşa rəqabətə girdiyinə diqqət çəkib.

Almaniya Kansleri ABŞ-ın yeni tarif siyasətinin də qlobal ticarət mühitini dəyişdirdiyini qeyd edib. Onun sözlərinə görə, ABŞ-nin yeni tarif rejiminin tətbiqindən sonra əməkdaşlıq və ticarət əhəmiyyətli dərəcədə azalıb. O, bəzi dövlət və hökumət başçılarının iqtisadi açıqlığın qarşılıqlı faydasına əvvəlki kimi inanmadığını qeyd edib.

Bununla belə, Almaniya Kansleri Avropanın yeni reallıqlar qarşısında yalnız müdafiə mövqeyində qalmalı olmadığını deyib. O bildirib ki, Aİ-nin əsas üstünlüyü onun iqtisadi miqyası, texnoloji və sənaye potensialı, eləcə də vahid bazarıdır. “Biz dünyada öz maraqlarımızı qoruya bilərik” deyən F.Merts bunun üçün Almaniya və Avropanın açıqlıq, hüququn aliliyi, ədalətli rəqabət, azad tədqiqat və inkişaf kimi prinsiplərə sadiq qalmasının vacibliyini qeyd edib.

Kansler, eyni zamanda, Avropanın asılılıqlarını azaltmaq və ədalətsiz rəqabətdən qorunmaq üçün daha effektiv ticarət siyasəti alətlərinə ehtiyac olduğunu bildirib: “Biz yeni ticarət tərəfdaşları qazanmaq, asılılıqları məqsədyönlü şəkildə azaltmaq, öz maraqlarımızı qorumaq və dünyada özümüzü Avropanın aparıcı ticarət gücü kimi mövqeləndirmək istəyirik”.

O, 450 milyon istehlakçını birləşdirən vahid Aİ bazarını dünyanın ən böyük bazarlarından biri kimi xarakterizə edib və Çinin özü üçün də Avropa bazarının mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

## Avropa üzünü Afrikaya çevirir

Yeni qlobal reallıqlar fonunda Avropa üzünü Afrikaya çevirir. Avropa İttifaqı və Afrika İttifaqı (Aİt) arasında iqtisadi əlaqələr və ticarət sövdələşmələri son illərdə əhəmiyyətli dərəcədə artmaqda və dərinləşməkdədir. Aİ hazırda Afrikanın ən böyük ticarət və investisiya tərəfdaşı olaraq qalır. 2024-2025-ci illərin məlumatlarına əsasən, tərəflər arasında illik ticarət dövriyyəsi təxminən 355-360 milyard avro təşkil edib

Aİ-nin Afrikaya marağının artmasının ən mühüm səbəblərindən biri rəqəmsal və yaşıl keçid üçün zəruri olan kritik xammalların (litium, kobalt, nadir metallar) tədarük zəncirini şaxələndirmək və Çindən asılılığı azaltmaqdır. Aİ Xarici Fəaliyyət Xidmətinin məlumatlarına görə, təmiz enerji layihələri sahəsində də yeni tərəfdaşlıq sazişləri (məsələn, Cənubi Afrika, Mavritaniya və Anqola ilə dayanıqlı investisiya sazişləri) dövriyyəyə daxil edilib.

Aİ özəl maraqlarının təmin edilməsi üçün Afrika ölkələri ilə mövcud ticarət müqavilələrini yeniləyir və yaxud onları genişləndirir. 2026-cı ilin iyun ayında Aİ dörd Afrika ölkəsi (Komor adaları, Madaqaskar, Mavriki və Seyşel adaları) ilə azad ticarət sazişinin dərinləşdirilməsi üzrə danışıqları başa çatdırıb. Bu saziş yalnız malların ticarətini deyil, həm də rəqəmsal ticarət, xidmətlər və investisiyaları əhatə edən sub-Sahara Afrikasındakı ilk genişmiqyaslı müqavilədir. Qeyd edək ki, bəhs olunan dövlətlər Şərqi və Cənubi Afrikanı təmsil edirlər.

Aİ həmçinin Cənubi Afrikada möhkəmlənmək niyyətindədir. Aİ-SADC İqtisadi Tərəfdaşlıq Sazişi çərçivəsində ticarət dövriyyəsi sabit şəkildə artır. Məsələn, Cənubi Afrika ilə ticarət dövriyyəsi 2025-ci ildə 46 milyard avroya çatıb.

Eyni zamanda, Aİ dünyanın ən böyük azad ticarət zonası sayılan Afrika Kontinental Azad Ticarət Zonasının (AfCFTA) yaradılmasını fəal şəkildə dəstəkləyir. Aİ və üzv dövlətlər ticarətin asanlaşdırılması, infrastruktur və rəqəmsal keçid üçün milyardlarla avro dəyərində maliyyə və texniki yardım paketləri (məsələn, Team Europe təşəbbüsü) ayırıb. 2026-cı ilin aprelində tərəfdaşlığı rəsmiləşdirən yeni anlaşma memorandumu imzalanıb.

Bundan başqa, Avropa İttifaqı Çinin Afrikadakı iqtisadi təsirinə (“Bir kəmər, bir yol”) qarşı özünün “Global Gateway” strateji proqramını irəli sürür. Bu çərçivədə Afrikada nəqliyyat dəhlizləri, yaşıl enerji layihələri və rəqəmsal bağlantıların qurulması üçün on milyardlarla avro investisiya yönəldilir.



## Hindistanla “buzlar əriyir”

Geniş və cəlbedici ixrac bazarı sayılan Hindistanla “buzların əridilməsi” və yaxud məsafələrin yaxınlaşdırılması da Avropanın planlarına daxildir. 2021-ci ildə Aİ ilə bu ölkə arasında azad ticarət sazişi üzrə uzun müddət dondurulmuş danışıqlar bərpa olunub. Əlaqələrin dərinləşdirilməsi zərurəti ilə bağlı Aİ-nin yüksəksəviyyəli rəsmiləri oxşar məzmunlu fikirlər ifadə edirlər. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen bildirib ki, Hindistanla azad ticarət sazişi dünyada ən böyük ticarət razılaşması olacaq. Onun sözlərinə görə, ticarət, texnologiya, təhlükəsizlik və müdafiə sahələrində genişləndirilmiş əməkdaşlığa əsaslanan Hindistanla daha sıx ittifaq gələcək illərdə və onilliklərdə Avropanın siyasətinin təməl daşına çevriləcək.

“Avropa İttifaqı və Hindistan bu ilin sonunadək Azad Ticarət Sazişi sənədini imzalayacaq”. Bunu isə Aİ Şurasının sədri Antonio Koşta Hindistanın Baş naziri Narendra Modi ilə görüşünün yekunlarına dair “X” sosial şəbəkəsində yazıb. “İlin sonunadək biz Azad Ticarət Sazişini imzalayacağıq. Həmçinin investisiya sazişi üzərində işi sürətləndirəcəyik. Biz təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı gücləndirəcəyik və IMEC-i (Hindistan - Yaxın Şərq - Avropa iqtisadi dəhlizi) təşviq edərək əlaqələri yaxşılaşdırmaq üçün səylərimizi birləşdirəcəyik”, - deyə Koşta yazıb.

Xatırladaq ki, Brüssel ilə Dehli bu səviyyədə yaxınlaşmayadək uzun müddət gözləyiblər. Tərəflər təxminən 20 il davam edən uzunmüddətli danışıqlardan sonra sazişin mətni üzərində yekun siyasi razılığı 27 yanvar 2026-cı ildə Nyu-Delhidə paraflayıblar. Hazırda sənəd yekun imzalanma mərhələsindədir. Avropa Komissiyası 2026-cı ilin sentyabrında sazişin imzalanması üçün rəsmi təklifini Avropa İttifaqı Şurasına təqdim edib. Aİ Şurasının sədri və Avropa Komissiyasının prezidenti sazişin bu təqvim ilinin sonuna qədər rəsmən imzalanacağını bəyan ediblər.

Rəsmi imzalanma və Avropa Parlamentinin ratifikasiyasından sonra sazişin 2027-ci ilin birinci rübündə tam qüvvəyə minməsi gözlənilir. Qlobal ÜDM-in təxminən 25 faizini əhatə edən bu tarixi müqavilə Avropadan Hindistana ixrac edilən malların (avtomobil, şərab, maşınqayırma məhsulları və s.) 96 faizdən çoxu üzrə gömrük rüsumlarının tamamilə ləğv edilməsini və ya kəskin azaldılmasını nəzərdə tutur.

## Avropa İttifaqı - MERCOSUR razılaşması

Avropa İttifaqının yeni ticarət tərəfdaşları axtarışları müxtəlif coğrafiyaları əhatə edir. Bu baxımdan 2026-cı ilin yanvarında Aİ ilə MERCOSUR (Cənubi Amerika Ortaq Bazarı) arasında azad ticarət sazişinin imzalanması da mühüm əhəmiyyət daşıyır. Bununla da 1999-cu ildən davam edən danışıqlar uğurla başa çatıb. Paraqvayda keçirilən mərasimdə sazişi Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen, MERCOSUR ölkələrinin - Argentina, Paraqvay və Uruqvayın dövlət başçıları və Braziliyanın xarici işlər naziri imzalayıblar.

Saziş Avropa İttifaqı ilə MERCOSUR ölkələrini əhatə edən 700 milyondan çox əhalinin yaşadığı bölgələri birləşdirən dünyanın ən böyük azad ticarət zonalarından birinin yaradılmasını nəzərdə tutur. Boliviya MERCOSUR qrupuna daxil olsa da, ilk mərhələdə sazişə qoşulmayacaq.

Saziş Aİ-yə üzv olan 27 ölkənin 21-nin səs çoxluğu ilə qəbul edilib. Sazişə əsasən, Aİ ilə MERCOSUR arasında dövriyyədə olan malların təxminən 90 faizindən çoxuna tətbiq oluna gömrük vergilərinin ləğv edilməsi nəzərdə tutulur. Nəticədə, Aİ-nin MERCOSUR ölkələrinə illik ixracatının 39 faiz (49 milyard dollar) artacağı gözlənilir.

Razılaşmanın Avropanın əczaçılıq, maşınqayırma, avtomobil sənayesi üçün böyük imkanlar təmin edəcəyi proqnozlaşdırılır. Aİ MERCOSUR ölkələrinə əsasən avtomobil və kimya məhsulları ixrac etdiyi halda, daha çox kənd təsərrüfatı məhsulları və xammal idxal edir.

## Aİ Orta Dəhlizin inkişafına 12 milyard avro ayıracaq

Aİ-nin ticarət əlaqələrini genişləndirmə planlarına həmçinin Cənubi Qafqaz və Mərkəzi Asiya da daxildir. O cümlədən Avropa İttifaqı Azərbaycandan neft-qaz, Mərkəzi Asiyadan kritik mineralların idxalını artırmaq niyyətindədir. Vacib istiqamətlərdən biri də Avrasiyada tranzit daşımaları üçün imkanların genişləndirilməsidir. Bu məqsədlə Avropa İttifaqı Cənubi Qafqaz və Mərkəzi Asiyanı Avropa bazarı ilə birbaşa bağlamalı olan Orta Dəhlizin inkişafı üçün 12 milyard avroyadək investisiya cəlb etməyi planlaşdırır. Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen Avropa Parlamentində Aİ-nin vəziyyəti ilə bağlı çıxışı zamanı bildirib. “Bu, bağlantılılıq sahəsində yeni beynəlxalq layihə olacaq. Layihə Cənubi Qafqazı və Mərkəzi Asiyanı Avropa bazarı ilə birbaşa birləşdirəcək. Biz bunu Orta Dəhliz adlandırırıq”, - deyə - Fon der Lyayen bildirib.

Onun sözlərinə görə, Aİ bu layihəyə 12 milyard avroya qədər dövlət və özəl investisiyaları cəlb etmək üçün “Global Gateway” təşəbbüsündən istifadə etmək niyyətindədir. Fikirlərinə davam edən qurum rəsmisi bildirib: “Məqsədimiz marşrutları şaxələndirmək, ticarət axınlarını 3 dəfə artırmaq və 2030-cu ilə qədər yüklərin tranzit vaxtını kəskin şəkildə azaltmaqdır”.

O, həmçinin Bolqarıstanın Baş naziri Rumen Radevlə birlikdə bağlantı məsələlərinə dair regional sammitin keçiriləcəyini elan edib. Avropa Komissiyası rəhbərinin sözlərinə görə, sammit layihənin praktiki reallığa çevrilməsinə yönəldiləcək.

Orta Dəhliz Mərkəzi Asiya, Xəzər dənizi və Cənubi Qafqazdan keçir və Aİ tərəfindən ticarət əlaqələrinin şaxələndirilməsi marşrutlarından biri kimi nəzərdən keçirilir. Brüssel üçün bu marşrutun önəmi regionda nəqliyyat və digər infrastrukturun inkişafı, həmçinin Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətləri ilə iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlıdır.

Fon der Lyayen bu cür tərəfdaşlıqların inkişafını beynəlxalq sistemin dəyişməsi və Aİ-nin tədarük zəncirlərinin dayanıqlılığını müstəqil şəkildə möhkəmləndirmək və öz iqtisadi maraqlarını qoruma zərurəti ilə əlaqələndirib.

*Mübariz ABDULLAYEV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Məktəb mühitində dünyəvilik və sosial bərabərlik...

## Məktəbli geyimi ilə bağlı yeni qaydalar müəyyənləşdirilib



Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri”ndə dəyişiklik edilməsi haqqında Qərar imzalayıb. Yeni qərara əsasən, təhsil müəssisələrində məktəbli formalarının dizaynı və tətbiqi qaydalarında bir sıra yeniliklər nəzərdə tutulur. Yeni qaydalara keçid edilməsində əsas məqsəd məktəb mühitində rahat, təhlükəsiz və təhsil prosesinə uyğun geyim mədəniyyətinin təşviq edilməsi və formalaşdırılmasıdır.

### Yeni qaydalar özündə nəyi ehtiva edir?

309 saylı Qərara əsasən müəyyənləşdirilən yeni qaydalar özündə nəyi ehtiva edir? Dəyişikliyə əsasən, təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, habelə ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadə edilməsinə yol verilmir.

Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə bağlı keçirilən tədbirlərdə isə milli geyimlərdən və ya milli geyim elementlərindən istifadə edilə bilər. Bununla bağlı məktəbin Pedaqoji Şurası müvafiq qərar verməlidir.

Yeni qaydalarda valideynlərin məsuliyyəti artırılır. Belə ki, valideynlər və ya digər qanuni nümayəndələr övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etməlidirlər.

Bu sənədin tələblərinə təhsilalanlar tərəfindən riayət olunması ilə bağlı məsələlər məktəbin Pedaqoji Şurası tərəfindən həll edilir.

Qərar qəbul edildiyi tarixdən 5 iş günü müddətində məktəbin rəsmi internet səhifəsində və ya məktəbin məlumat lövhəsində yerləşdirilməlidir.

### Məktəb valideynlərin imkanlarını nümayiş etdirdiyi məkana çevrilməməlidir

Yeni qaydalar məktəbli formasının tədris prosesinə, yaş xüsusiyyətlərinə uyğunluğu, rahat və praktik istifadə prinsipləri əsasında müəyyən edilib. Məktəb mühitində ən vacib prinsiplərdən biri bərabərlikdir. Sosial statusdan, ailənin maddi imkanlarından, etnik və ya dini mənşəyindən asılı olmayaraq hər bir uşağın eyni şərtlərdə təhsil alması, eyni fürsətlərə malik olması təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi nöqteyi-nəzərindən çox vacibdir. Heç bir halda yol vermək olmaz ki, məktəb şagirdin öz valideynlərinin imkanlarını və sərvətlərini nümayiş etdirdiyi bir məkana çevrilsin. Bu halda sosial bərabərsizlik yaranar ki, bu da mütləq qaydada şagirdlərin psixologiyasında özünü göstərər. Eyni zamanda, hansısa bir şagirdin məktəbə dəbdəbəli geyimdə gəlməsi və yaxud bahalı bəzək əşyaları taxması diqqəti əsas məqsəddən - təhsildən yayındırar.

Azərbaycanın dövlət quruluşu dünyəvidir və bu, Konstitusiya ilə təsbit olunub. Təbii ki, Azərbaycan dünyəvi dövlətdirsə, ölkədə təhsil sistemi də dünyəvi xarakterli olmalıdır. Bu, təhsilin məzmununda olduğu kimi, şagirdlərin geyimində də öz əksini tapmalıdır. Burada heç bir halda vicdan azadlığının pozulmasından və yaxud dinlər arasında hansısa bir fərq qoyulmasından söhbət belə gedə bilməz. Azərbaycanda bütün insan və vətəndaş hüquq və azadlıqları təmin olunub. O cümlədən respublikamız tolerant mühiti ilə fərqlənir. Burada bütün xalqların və etiqadların nümayəndələri eyni hüquqlara malikdirlər. Söhbət ölkəmizdə təhsil müəssisələrinin dünyəvi xarakter daşımasından gedir və qaydalar da milli, dini, irqi mənsubiyyətindən asılı olmayaraq bütün şagirdlərə aiddir. Vahid məktəbli forması şagirdlər arasında bərabərliyin və vahid məktəb mühitinin təmin olunmasına xidmət edir, şagirdlərdə kollektivə aidlik, məsuliyyət və məktəb kimliyi hissinin formalaşmasına müsbət təsir göstərir.

Burada şagirdlərarası münasibətlər kimi vacib faktoru da diqqətdən qaçırmaq olmaz. Uşaqların eyni parta arxasında oturarkən bir-birindən seçilməməsi onların münasibətində də mühüm rol oynayır, eyni zamanda şagirdlər arasında sosial-iqtisadi fərqlərin qarşısını almağa, həmçinin ayrı-seçkilik risklərini azaltmağa imkan yaradır.

Şagirdlərə yaxşı təhsil verilməsi yalnız məktəblərin və müəllimlərin işi deyil. Keyfiyyətli təhsilə nail olmaq istəyiriksə, valideynlərlə məktəb arasında əlaqələr intensivləşməlidir. Valideyn məktəbə, məktəb də valideynə, ailəyə dəstək olmalıdır. Həmçinin geyim kodeksinə riayət olunmasında valideynlərin məsuliyyətinin artırılması məktəb-ailə əməkdaşlığının gücləndirilməsinə bir töhfədir. Bu baxımdan, vahid məktəbli geyimi çox doğru olaraq təhsil prosesinin keyfiyyətinə dəstək verən vasitə kimi dəyərləndirilir.

***M.ABDULLAYEV***

# Payız gəldi...



Payız fəsli Azərbaycana sentyabrın 23-ü Bakı vaxtı ilə saat 04:05-də daxil oldu.

N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından verilən məlumata görə, Günəş ekliptika üzrə hərəkət edərək Şimal yarımkürəsindən Cənub yarımkürəsinə keçib və həmin andan Şimal yarımkürəsində payız fəsli, Cənub yarımkürəsində isə yaz fəsli başlayıb. Bu gün bütün coğrafi enliklərdə Günəş şüaları Yer səthinə perpendikulyar düşəcək və gündüzlə gecənin uzunluğu bərabərləşərək 12 saat olacaq.

Qeyd edək ki, Şimal yarımkürəsində payız fəsli dekabrın 22-nə qədər davam edəcək. Dekabrın 22-si saat 07:27-də qış fəsli payızı əvəz edəcək. Qeyd edək ki, payız fəslinə keçid anı “payız bərabərliyi” adlanır. Bu zaman gecə ilə gündüz demək olar ki, bərabərləşir və Günəş düz şərqdə doğub, qərbdə batır.

Fəsillərin dəyişməsi Yerin Günəşdən məsafəsinin dəyişməsi ilə deyil, Yerin Günəş ətrafında hərəkəti və fırlanma oxunun orbit müstəvisinə təxminən 66.56° meyilli olması ilə bağlıdır. Məhz bu meyillilik nəticəsində il ərzində Günəş şüalarının Yer səthinə düşmə bucağı dəyişir və fəsillər yaranır.

2026-cı ildə astronomik payız 89 gün 21 saat 45 dəqiqə 1 saniyə davam edəcək və 22 dekabrda baş verəcək qış günəşduruşu ilə başa çatacaq. Həmin andan etibarən Şimal yarımkürəsində astronomik qış, Cənub yarımkürəsində isə astronomik yay başlayacaq.

# Soyuq, sirli nəhəng...

## 8-ci planetə niyə Neptun adı verildi?



Neptunun kəşfi astronomiya tarixində bənzəri olmayan elmi zəka və müşahidənin bir qələbəsi kimi yadda qalıb. Bu, sadəcə bir planetin teleskopla görünməsi deyildi, riyazi hesablamalarla varlığı proqnozlaşdırılan ilk planetin tapılması idi. Neptunun kəşfi elm adamlarının kainatı yalnız baxaraq deyil, düşünərək də kəşf edə bildiklərini sübut etdi.

**Neptun necə kəşf edildi?**

19-cu əsrin əvvəllərində artıq Günəş sistemində Uran planetinin mövcudluğu məlum idi. Lakin astronomlar Uranın orbitində qəribəliklər müşahidə etməyə başladılar. O, hesablamalara uyğun hərəkət etmirdi, bəzən gözləniləndən daha sürətli, bəzən isə yavaş hərəkət edirdi. Bu isə alimləri düşündürdü ki, onun yaxınlığında görünməyən, amma cazibə qüvvəsi ilə ona təsir edən başqa bir planet ola bilər.

İki müstəqil alim, fransız Urbain Le Verrier və ingilis John Couch Adams Uranın orbitini araşdırmağa başladılar. Hər biri fərqli yaxtlarda, mürəkkəb riyazi hesablamalar vasitəsilə görünməyən bir planetin mümkün mövqeyini təyin etdilər.

Le Verrier öz hesablamalarını 1846-cı ilin yayında Berlin Rəsədxanasına göndərdi və orada çalışan astronom Johann Galle və onun köməkçisi Heinrich d’Arrest bu məlumat əsasında səmanı müşahidə etməyə başladılar.

**Kəşfin əhəmiyyəti**

Neptunun kəşfi astronomiyada yeni bir mərhələ açmışdı. Elmi metodların və nəzəriyyələrin real kainatla necə uyğunlaşa bildiyini göstərdi. İnsan zəkasının nə qədər uzağa gedə biləcəyini sübut etdi. Kainatın hələ nə qədər sirli və dərin olduğunu bir daha ortaya qoydu.

19-cu əsrdə yeni planet kəşf edilərkən, alimlər onu dənizlə bağlı bir adla adlandırmaq qərarına gəldilər. Bu, həm planetin soyuq, mavi rəngini, həm də onu əhatə edən soyuq qaz atmosferini simvolizə edirdi. Roma dəniz tanrısı Neptunun adı da bu xüsusiyyətlərə çox uyğun gəlirdi.

Yəni Neptun planetinin adı həm astronomiyada, həm də mifologiyada gücü və sirlərini ifadə edən simvolik bir ad olaraq seçilmişdi.

Neptuna heç vaxt ayaq basa bilməyəcəyik. Amma onun varlığı bizim üçün bilik və maraq sərhədlərinin harada bitdiyini sorğulamağa səbəb olur. Neptun sanki kainatın astanasında dayanıb bizə baxır və deyir: “Hələ bilmədikləriniz, gördüklərinizdən çoxdur”.

***Yeganə BAYRAMOVA***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1239
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova